# Azərbaycanı məhvə aparan təhlükəli qərarlar

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№41 (3332) 29 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik

ANA XƏBƏR



## Aqil Babayevə qarşı saxta ittihamlar ifşa olunur

# DSX 150 hərbçi ailəsini öz evlərindən çıxarır

Onların bir çoxu 30 ildən çoxdur ki, hərbi şəhərcikdən kənarda yerləşən bu mənzillərdə daimi qeydiyyatdadırlar



2

GÜNÜN NƏBZİ

Müsahibə

## "Bir ailənin 4 üzvü İranla məxfi əməkdaşlığa cəlb olunmuşdu..."



Taryel Əliyev: "Bəzi hallarda vəzifəli şəxslərin özləri də narkotik dövriyyəsinin içərisində olur" 8-9

Xəbər

## "Hakim partiya müxalifətin əldə etdiyi səsi mənimsəyib"

ADP Gürcüstanda keçirilən parlament seçkilərinin saxtalaşdırılmasını pisləyib... 2

Təhlil

## Gürcüstanda "Rusiya seçkiləri"

Kreml "bir daşla iki quş vurdu"; həm Avropanı Gürcüstandan "çıxardı", həm də ölkəni tamamilə nəzarətə aldı 3

Ölkə

## Bakıda zəbt olunan 52 sot torpaq sahəsi ilə bağlı araşdırma aparılır?

Teymur Cabbarovun müraciəti qəzetimizdə dərc olunduqdan sonra cinayət işi Nizami Rayon Prokurorluğundan alınıb... 7

Layihə

## Qadın aşırı dərəcədə azad olmaq istəyirsə...

Sosioloq Mail Yaqub: "Bu, feministlərin 20-ci əsrdə dünyaya ərmağan etdikləri biabırçılıqdır" 12

Söhbət

## "Bu gün qürurla deyirəm ki, artıq 16 aydır ayığam..."



Cavid Tağıyev: "Alkoqol istifadə edən insan keçmişlə, narkotik istifadə edən gələcəklə danışır" 11

Cəmiyyət

## Balıq məhsullarının qiymətində artım gözlənilir



Vahid Məhərrəmli: "Əgər balığın idxal rüsumu 15 faiz artıbsa, yerli bazarda onun qiyməti 20 faiz artacaq" 4

Baxış

## Banklar sahibkarları necə qarət edir?

Cəmiyyətdə ilk bankların yaranması bir çox insanların, ilk növbədə isə sahibkarlıqla məşğul olanların və sahibkarlıqla məşğul olmaq istəyib, lakin bunun üçün maliyyə vəsaitinin olmaması və ya bu iş prosesinin başa çatması üçün yetərli olmaması zərurətindən meydana gəlib. Borc adlanan iqtisadi kateqoriya bəşər övladının insan olaraq şüurlu həyat sürməsinin hələ ilkin mərhələlərindən belə, mövcud olmuşdur. Bu borclar ilkin mərhələlərdə əmək alətləri, ərzaq, paltar və s. kimi natural formada, həm də borcun alındığı miqdar, dəyər və digər ölçülərdə qaytarılması şərti ilə verilib... 6

Aktual

## Cərimə batalyonları

Çox-çox qədimlərdə dünyanın gözəl guşələrinin birində idbar bir məmləkət vardı... Və bu məmləkətin başıqapazlı əhalisi qaçıb cəhənnəmə getməyi ən böyük xoşbəxtlik sayırdı... Onlar öz aralarında məmləkətlərini "Cərməstan" adlandırırdı... haqlıydılar da!.. Amma elə zənn eləməyin ki, külli-əhali təkcə cərimələrə görə baş götürüb qaçmaq istəyirdi. Yox. Əslində, təhlükə daha böyük idi. Yəni ölkənin hörmətli-izzətli, əlahəzrət Şahən Şahı öz rəiyyət ilə məzələnməyi yaman xoşlayırdı. Hətta bu məqsədlə hər yerdə və hər işdə şəxsən ona dördayaqlı sadiqliy nümayiş etdirənlərdən çoxlu sayda cərimə batalyonları da yaratmışdı. Əslində, Şahən Şaha bəlliydi ki, o, məhz belə batanyonların sayəsində uzun müddət öz taxtı-tacında şellənib otura bilir... 10

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№41 (3332) 29 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik


# 69 yaşlı Bill Qeytsin qadınları

## Çoxları uzun müddət onun bir qadına sadiq olduğunu düşünürdü, amma...




"Overdrive: Bill Qeyts və kibermәkana nəzarət yarışı" kitabının müəllifi Ceyms Uolles qeyd edir: 80-ci illərdə Qeyts hətta avtomobilindən radionu qoparıb ki, heç nə onu yeni ideyalar üzərində düşünməkdən yayındırmasın. Və həmişə evə "ölümcül yorğun" qayıdırdı, buna görə ailə haqqında düşünməyə vaxtı yox idi...

**Bu gün "Microsoft"un yaradıcısının 69 yaşı tamam olur. Xarici KİV-lərin xəbərinə görə, milyarder təkcə bütün dünyanı dəyişdirən parlaq ideyaları ilə deyil, həm də qadınlarla çoxlu münasibətləri ilə tanınır (baxmayaraq ki, çoxları uzun müddət onun bir qadına sadiq olduğunu düşünürdü).**

Cill Bennett və Bill Qeyts 1983-cü ildə Sietldə bir ziyafətdə tanış olublar - Cill və Bill qonşu idilər və ortaq dostları var idi. Münasibət bir neçə il davam edib: qız gəncdən kifayət qədər diqqət görməyi. Bu başa düşüləndir - o vaxt Qeyts yalnız Microsoft Windows əməliyyat sisteminin yaradılması üzərində işləyirdi.

"Overdrive: Bill Qeyts və kibermәkana nəzarət yarışı" kitabının müəllifi Ceyms Uolles qeyd edir: 80-ci illərdə Qeyts hətta avtomobilindən radionu qoparıb ki, heç nə onu yeni ideyalar üzərində düşünməkdən yayındırmasın. Və həmişə evə "ölümcül yorğun" qayıdırdı, buna görə ailə haqqında düşünməyə vaxtı yox idi.

Ayrıldıqdan sonra Cill və Bill dost olaraq qalıblar. Qeytsin keçmiş sevgilisi 2004-cü ildə xərçəngdən ölüb və sahibkar onun haqqında çox isti danışıb və onu "həyatla dolu istedadlı qadın" adlandırıb.

İş adamı həqiqətən də keçmiş sevgililərindən necə ayrılacağını bilir. Beləliklə, Bill növbəti sevgilisi Enn Vinblad ilə üç il keçirib, lakin ayrıldıqdan sonra yaxından ünsiyyət qurmağa davam edib. Üstəlik, onların münasibətləri hətta Qeytsin Melinda Frenç ilə evliliyi dövründə də mövcud idi.

Melinda rəsmi olaraq ərinə keçmiş sevgilisi ilə Şimali Karolina adalarına (Qeytslərin evlərindən biri orada idi) getməsinə icazə verdiyini bildirib. Ancaq, əlbəttə ki, "Time"ya verdiyi müsahibədə Bill ilə sadəcə "dünya və bir-biri haqqında düşüncələr" mübadiləsi apardıqlarını söyləyib, lakin sonradan İT mütəxəssisinin doymaz cinsi iştahı ilə bağlı ortaya çıxan faktları bildiyinə inanmaq çətindir. Yeri gəlmişkən, Enn cəmi doqquz il əvvəl ərə gedib. Tamamilə mümkündür ki, onların Bill ilə "dünya və bir-birləri haqqında" ada müzakirələri rəsmi olaraq başa çatıb.

Bill Melinda ilə 80-ci illərdə tanış olub (bu, "Microsoft" un tədbiri idi, qız artıq bir müddət şirkətdə işləmişdi). Əvvəlcə iş mövzularında ünsiyyət qurublar və romantik münasibətləri çox sonra olub. 1994-cü ildə evləniblər və birlikdə üç övladları doğulub: qızları Cennifer və Fibi və oğlu Rori. 27 illik evlilik və ortaq layihələrdən sonra cütlük ayrılıb və Bill 2000-ci illərdə baş verən bir əlaqəni sosial şəbəkələrdə etiraf edərək həyat yoldaşı ilə ayrılığı müşayiət edib.

Milyarderin postunu həsr etdiyi şəxsin adı heç vaxt açıqlanmayıb, lakin Qeytsin boşandığı dövrdə Billin müxtəlif qadınlarla daimi orgiyaları və cəlbedici həmkarları ilə qeyri-iş münasibətləri haqqında müxtəlif mənbələrdən çoxlu məlumatlar ortaya çıxıb. Billin cazibəsinin qurbanlarından biri tərcüməçi Şelli Van və peşəkar körpü oyunçusu Mila Antonova olub. Sonuncu ilə bağlı tamamilə cinayət şayiələri var: onun rus casusları ilə əlaqəsi olduğunu və Qeytsin dostu Ceffri Epsteinin mürəkkəb seks alveri sxemində iştirak etdiyini söyləyirlər.

İndi sahibkar da subay deyil, o, tennisçi Paula Herd ilə görüşür (mərhum əri Oracle proqram təminatının baş direktoru idi, ona görə də onun da Qeytsin əlinə düşməsi təsadüfi deyildi). Boşandıqdan sonra dünyanın ən zəngin qadınlarından birinə çevrilən Melindaya gəlincə, o, bir ildir ki, jurnalist Con Dyu Pre ilə münasibətdədir.

*Əyləncə səhifəsi*

# Yadplanetlilərin yerdəki bazaları aşkar olundu

**Son illər uçan naməlum obyektlər haqqında məlumatları ifşa etmək və məlumat verənləri ABŞ Konqresi ilə əməkdaşlığa cəlb etməklə məşğul olan məşhur vəkil və fəal Denni Şihan sensasiyalı açıqlama verib.**



Lent.az-ın xarici mediaya istinadən məlumatına görə, Reddit platformasında tez bir zamanda populyarlıq qazanan yeni müsahibəsi zamanı Şihan bildirib ki, Yer kürəsində iki yadplanetli bazası var. Onun sözlərinə görə, onlardan biri dağlarda, əlçatmaz səhra ərazilərində, digəri isə Sakit okeanda, Bahadan çox da uzaqda, Baha yarımadası ilə Qvadelupa adası arasındakı ərazidə su altındadır.

Şihan qeyd edib ki, sualtı bazaya gələn və çıxan nəqliyyat vasitələrini göstərən çoxlu video kadrlar var. Bu qeydlərdə cisimlərin okeana batırılaraq sualtı bazaya doğru getdiyi iddia edilir.

O, həmçinin vurğulayıb ki, bəzi ABŞ milli təhlükəsizlik rəsmiləri bu bazaların mövcudluğundan xəbərdardırlar və hətta pilotlarını ələ keçirmək üçün uçan naməlum obyektləri vurmağa cəhd edirlər. Şihan bu vəziyyətin təhlükələrindən narahatlığını ifadə edib.2024-cü il "Qlobal diskurs günü 2024" çərçivəsində yayılan çıxışı zamanı Şihan bildirib ki, uçan naməlum obyekt fenomeni tamamilə realdır və təbiət hadisələrinin yanlış müəyyən edilməsi və ya gizli hökumət texnologiyası ilə bağlı deyil. O, həmçinin uçan naməlum obyektlərin başqa planetlərdən və ya başqa ölçülərdən ola biləcək canlıları daşıdığını və bu ziyarətlərin uzun müddətdir davam etdiyini iddia edir.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# DSX 150 hərbçi ailəsini öz evlərindən çıxarır

## Onların bir çoxu 30 ildən çoxdur ki, hərbi şəhərcikdən kənarda yerləşən bu mənzillərdə daimi qeydiyyatdadırlar

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbər şəxslərinin qanunsuz əməlləri ilə bağlı "Hürriyyət"in redaksiyasına növbəti şikayət məktubu daxil olub. 150 ailə adından göndərilən məktubu olduğu kimi təqdim edirik:**

"Biz, Dövlət Sərhəd Xidmətinin ehtiyatda və istehfada olan hərbi qulluqçuları və ailə üzvləri, bildiririk ki, müxtəlif vaxtlarda (Sovet hökuməti dönəmi, Milli Təhlükəsizlik Nazirliyi və DSX dönəmində) ehtiyata və istefaya buraxıldıqdan sonra Lənkəran şəhərinin mərkəzində yerləşən N saylı hərbi hissənin hazırkı hərbi şəhərciyindən tamamilə kənarda yerləşən binalarda mənzillərlə təmin olunmuşuq. Bu mənzillər, əsasən Ümumilli lider Heydər Əliyevin hakimiyyəti dövründə verilmişdir.

Dövlət Sərhəd Xidmətinin rəhbərliyi tərəfindən mənzillərdə yaşayan rus və Azərbaycan əsilli vətəndaşların ünvanına müxtəlif vaxtlarda evlərin tərk edilməsi ilə bağlı xəbərdarlıq məzmunlu bildirişlər göndərilir və ailələr mütəmadi olaraq narahat edilir. Baxmayaraq ki, ailələr uzun müddətdir (10-30 il) bu evlərdə daimi qeydiyyatdadırlar və bütün kommunal təminatları Lənkaran Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilir. Bununla belə, DSX hərbi şəhərcikdən kənarda olan bu evlərin onlara məxsus olduğunu və 150 ailənin hər birinin mənzillərdən çıxmalı olduğunu iddia edir".

Şikayətçilər bildirir ki, bu mənzillərdə yaşayanların bir qismi SSR dönəmində xidmət etmiş hərbi qulluqçulardır: "Hansı ki, onlar Sovet Qoşunları Azərbaycan ərazisini tərk edərkən könüllü olaraq Azərbaycan Sərhəd Qoşunlarında qalıb xidmətlərini davam etdirmiş Rusiya əsilli Azərbaycan vətəndaşları və 20 ildən artıq xidmət etmiş 45-70 yaş arası ehtiyatda olan hərbi və mülki qulluqçulardır. Qeyd etmək istəyirik ki, bizim bu mənzillərdə yaşamağımız Azərbaycan Respublikasının qanunvericiliyinə tam uyğundur. Sizdən xahişimiz budur ki, Lənkəran şəhərində bizə orderlərlə verilmiş, uzun müddətdir qeydiyyatda olduğumuz bu evlərin qanuni şəkildə özəlləşdirilməsi və adlarımıza keçirilməsi məsələsini ictimailəşdirəsiniz ki, Ali Baş Komandan bundan xəbərdar olsun.

Əlavə olaraq bildiririk ki, Ali Baş Komandana etdiyimiz bütün müraciətlər dövlət başçısına çatdırılmır. Dövlət struktur qurumlarına etdiyimiz müraciətlər isə qanunsuz olaraq yenidən DSX-ya yönəldilir".

**Hazırladı: KƏNAN**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Hakim partiya müxalifətin əldə etdiyi səsi mənimsəyib"

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə BRICS-ə daxil olan ölkələrin Kazan görüşünə münasibət bildirib.**

Partiya yetkililəri, əsas tərkibi avtoritar rejim daşıyıcısı olan dövlətlərdən formalaşmış və daha çox bu ölkələrin iqtisadi, siyasi maraqlarının təmin edilməsinə yönəlmiş bu quruma Azərbaycanın üzv dövlət kimi daxil olmasını milli maraqlarımıza uyğun olmaması baxımından məqbul hesab etməyib. Qeyd edilib ki, Azərbaycan Demokratik Cümhuriyyətin davamçısı olan ölkə kimi öz gələcək yerini avtoritar ölkələr sırasında deyil, elmin, texnologiyanın inkişaf etdiyi, tərəqqinin intişar tapdığı, demokratik dəyərlərin, insan hüquq və azadlıqlarının qorunduğu Qərb dünyasında tapmalıdır.

İdarə Heyəti qonşu Gürcüstanda keçirilən parlament seçkilərinin nəticələrinə münasibət bildirib və adı çəkilən ölkədə seçkilərin total şəkildə saxtalaşdırılmasını, gürcü müxaliflərin əldə etdiyi nəticələri hakim partiyanın xeyrinə mənimsənilməsi faktını qətiyyətlə pisləyib və Rusiyanın bu seçkilərə dolayı yolla aktiv müdaxiləsini onun Cənubi Qafqazda demokratiya tərənnümçüsü bir ölkənin avtoritar rejimlə əvəzlənməsi cəhdi kimi dəyərləndirib.

İdarə Heyəti Avropa Parlamentinin Azərbaycanda insan hüquq və azadlıqlarının pozulması və bu ad altında keçmiş separatçı rejimin müdafiəsi məqsədi ilə erməni məsələsinin yenidən gündəmə gətirməsini ehtiva edən qətnamə qəbul etməsinə münasibət bildirilib. Qətnamənin insan hüquq və azadlıqları ilə bağlı hissəsinin obyektiv gerçəkliyi əks etdirməsini müsbət dəyərləndirən partiya rəsmiləri, bu iradların aradan qaldırılması barədə hakimiyyətə çağrış etməklə, erməni məsələsinin bu qətnaməyə məqsədyönlü şəkildə pərçim edilməsini yolverilməz hesab edib və Qərb strukturlarını ölkəmizə qarşı erməni, xristian təəssübkeşliyindən doğan ikili standartlara son qoymağa çağırıb. Qeyd edilib ki, bu cür qərəzli, ikili yanaşmalar, 30 ilin işğalçı rejiminin başında duran Ermənistanı müdafiə edilməsi bütövlükdə Cənubi Qafqazda demokratik gəlişməni əngəlləməkdən başqa bir şey deyil və bu ayrı-seçkilik sonda regionda yenidən güclənmək istəyən Putin Rusiyasının imperialist istəklərinə xidmət edir.



## ADP Gürcüstanda keçirilən parlament seçkilərinin saxtalaşdırılmasını pisləyib...

İdarə Heyəti qardaş Türkiyədə həyata keçirilən, arxasında qlobal güclərin durduğu terror hadisəsinə münasibət bildirib və Türkiyənin dünyada artan nüfuzunu, hərbi sənaye gücünü sarsıtmaq, regional və dünya çapında aktiv iştirakını əngəlləmək məqsədi daşıyan bu qanlı hadisəni qətiyyətlə pisləyib, həlak olanların doğmalarına dərin hüznlə baş sağlığı ünvanlayıb.

İdarə Heyəti Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanması istiqamətində dövlət başçısının yerli və beynəlxalq müstəvidə göstərdiyi cəhdləri müsbət dəyərləndirib və sülhün baş tutması üçün siyasi fitnəkarlıq göstərən Rusiya və Fransa kimi dövlətlərin təzyiqlərinə baxmayaraq, yaxın zamanda ikitərəfli sazişin əldə edilməsinin vacibliyini diqqətə çatdırıb.

İdarə Heyəti İsraillə İran arasında yaranan və getdikcə iki ölkə çərçivəsindən kənara çıxaraq Yaxın və Orta Şərqi təhdid edən müharibə gərginliyindən ciddi narahat olduğunu qeyd edib və hər iki ölkə başçıları və xalqlarını müharibə alovunun qarşısını almağa səsləyib, BMT yetkililərini müharibələrin qarşısını almaq, dinc yanaşı yaşamaq barədə üzərlərinə götürdükləri beynəlxalq öhdəlikləri yerinə yetirməyə çağırıb.

İdarə Heyəti son zamanlar Rusiya və Azərbaycan arasında bir sıra dövlət strukturlarının, xüsusilə kənd təsərrüfatı, turizm, xarici siyasət sahəsində fəaliyyətin əlaqələndirilməsi ilə bağlı yetkililərin razılaşma əldə etməsi faktını məqbul hesab etməyib və bu cür razılaşmaların milli marqlarımıza, suveren hüquqlarımıza xidmət etmədiyini, xarici siyasət sahəsində elan edilmiş prioritetlərimizə zidd olduğunu bildirməklə, hakimiyyəti Rusiyanın bu və ya digər formada iqtisadi və siyasi strukturlarımıza sızma siyasətini önləməyə çağırıb.

İdarə Heyəti son günlər baş verən güclü leysan yağışları nəticəsində yol tikinti strukturlarının dağıdılması, iflic olması, iki gəncimizin bu hadisənin qurbanı olması faktından ciddi narahat olduğunu bildirib və hakimiyyəti korrupsiya və rüşvətxorluğun acı nəticələrini ortaya qoyan bu məsələni ciddi araşdırmağa və cinayətkar şəxslərin qanun qarşısına gətirilməsini təmin etməyə çağırıb.

> İdarə Heyəti qardaş Türkiyədə həyata keçirilən, arxasında qlobal güclərin durduğu terror hadisəsinə münasibət bildirib və Türkiyənin dünyada artan nüfuzunu, hərbi sənaye gücünü sarsıtmaq, regional və dünya çapında aktiv iştirakını əngəlləmək məqsədi daşıyan bu qanlı hadisəni qətiyyətlə pisləyib, həlak olanların doğmalarına dərin hüznlə baş sağlığı ünvanlayıb...

**Hazırladı: KƏNAN**

# Gürcüstanda "Rusiya seçkiləri"

Gürcüstanda çoxdan gözlənilən parlament seçkiləri belə demək olarsa, başa çatdı. Döğrudur, prezident Salome Zurabişvili başda olmaqla ölkədəki qərbyönlü cinahın hələ müqavimət və etiraz perspektivi mövcud olsa və gözlənilsə də, "Gürcü arzusu" tələm-tələsik "qələbəsi"ni elan etdi. Elə "Gürcü arzusu" hökuməti kimi, digər avtoritar hökumətlər də geri qalmayaraq saxtalaşdırılmış seçkinin nəticələrini qəbul edərək, təcili təbriklərini səsləndirdilər.



Kreml "bir daşla iki quş vurdu"; həm Avropanı Gürcüstandan "çıxardı", həm də ölkəni tamamilə nəzarətə aldı

Seçki müddətində Azərbaycanın da saxta parlamentinin rusbaş üzvləri "Gürcü arzusu"nu dəstəkləmək və öz saxtakarlıq təcrübələrini bölüşmək üçün orada idilər. Hətta teleqram kanallarından birində Azərbaycanın saxta parlament üzvlərindən biri mediaya müsahibə verdiyi zaman arxa fonda saxtakarlıq aktının baş verməsinin görüntüləri paylaşıldı.

Bütün baş verənlərə baxmayaraq, gürcü milləti, prezidenti öndə olmaqla, Rusiyadan gələn saxtakarlığa qarşı müqavimət başladacağını elan etdi. Salome Zurabişvili parlament seçkilərini, "Gürcü xalqı üzərində sınaqdan keçirilmiş hibrid müharibənin yeni forması" adlandırdı. O, seçkilərin nəticələrinin tamamilə saxtalaşdırıldığını elan etdi: "Bu, total saxtakarlıq və səslərinizin qəsbi idi. Müxtəlif ölkələrdə gördüyümüz bütün üsullardan istifadə olunub. Bununla belə, bu dəfəki saxtalaşdırma üçün istifadə edilmiş texnologiyalar lap ağını çıxartdı. Bu, əvvəllər heç vaxt olmamışdı. Biz Rusiyanın xüsusi əməliyyatının, xalqımıza, ölkəmizə qarşı aparılan hibrid müharibənin şahidi və qurbanı olduq".

Beləliklə, prezident bu səsverməni "Rusiya seçkiləri" adlandıraraq, hakimiyyəti vətəndaşları Konstitusiya ilə təmin edilmiş hüquqlardan məhrum etməkdə ittiham etdi: "Seçki institutu əlimizdən alındı, çünki bu seçkilərdən sonra nəsə dəyişməsə, gələcəkdə seçkilərin necə olacağını təsəvvür etmək çox çətindir. Onlar bizim konstitusion seçim hüququmuzu əlimizdən aldılar". Salome Zurabişvili həmçinin, Mərkəzi Seçki Komissiyasının ictimaiyyətə təqdim etdiyi nəticələri tanımadığını vurğuladı: "Mən bu seçkiləri tanımıram. Bu seçkilər tanına bilməz. Bu, Rusiyanın buraya daxil olması, Gürcüstanın Rusiyaya tabe olması deməkdir. Mən bunun üçün ölkəyə gəlməmişəm. Bizim əcdadlarımız bunun üçün yaşamayıb və biz bunu qəbul etməyəcəyik. Heç kim Gürcüstanın Avropa gələcəyini əlindən ala bilməz". Bunun ardınca isə, o, insanları Tiflisin mərkəzində etiraz aksiyasına çıxmağa çağırdı.

Öz növbəsində, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili də müxalifəti parlament seçkilərinin nəticələrinə etiraz etməyə çağırdı: "Dünyaya azadlıq uğrunda mübarizə apardığımızı, ədalətsizliyə dözməyən xalq olduğumuzu göstərmək üçün böyük etirazların vaxtıdır. Vaxt çox azdır!".

Beynəlxalq təşkilatlardan isə Avropa Şurasının prezidenti Çarlz Mişel Gürcüstan Mərkəzi Seçki Komissiyasını səslərin hesablanması zamanı pozuntuları araşdırmağa və düzəltməyə çağırdı. O, bu barədə X sosial şəbəkəsində bildirdi: "Biz Rusiyanın xüsusi əməliyyatının qurbanı olduq. Biz ATƏT/DTİHB-in (Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu) ilkin qiymətləndirməsini nəzərə alırıq və Mərkəzi Seçki Komissiyası ilə digər aidiyyəti qurumları mümkün pozuntuları və bununla bağlı iddiaları operativ, şəffaf və müstəqil şəkildə araşdırmaq və nəzərdən keçirmək üzrə öhdəliklərini yerinə yetirməyə çağırırıq. Bu mümkün pozuntular ciddi şəkildə araşdırılmalı və aradan qaldırılmalıdır".

Hər bir halda "Gürcü arzusu" hökumətinin bu çağırışlara saymazyana yanaşacağı göz qabağındadır. Bu reaksiya hökumət səviyyəsində tezliklə ortaya qoyulacaq.

Gürcüstanda 4 müxalifət partiyası parlament seçkilərinin nəticələrini tanımayıb və parlamentə qatılmaqdan imtina edib. Gürcü müxalifətində 5 faizlik baryeri 4 partiya keçə bildi. Bunlar "Dəyişiklik üçün koalisiya", Saakaşvilinin əsasını qoyduğu "Birlik - Milli hərəkat", "Güclü Gürcüstan" və "Qaxariya - Gürcüstan naminə" partiyalarıdır. "Dəyişikliklər üçün koalisiya" ölkədə sistemli dəyişikliklərə çağırır. Onların 4 vədi - Aİ -yə daxil olmaq üçün danışıqlara başlamaq, "xarici agent" qanunu kimi mürtəce, antidemokratik qanunların ləğvi, vergilərin azaldılması və təhsilə investisiya qoyulmasıdır.

"Birlik - Milli hərəkat"ın hədəfi isə 4 ildə kasıblıqla mübarizə, ədliyyə sahəsində islahatlar və ölkənin Aİ-yə daxil olması prosesini bərpa etməyə çalışmaqdır.

"Güclü Gürcüstan" iki yüz min yeni iş yerinin açılması və imiqrantların geri qayıtması üçün şəraitin yaradılması, Rusiyanın Gürcüstandakı təsirinin azaldılması və Aİ-yə daxil olmaq hədəflərini açıqlayıb.

"Qaxariya - Gürcüstan naminə" partiyasının proqramı əsasən iqtisadi əsaslıdır. Onun hədəfləri minimal əmək haqqının 950 lariyə qaldırılması və işini itirən şəxslərə 6 ay müddətində maaşının 60 faizinin ödənilməsi, işə düzələ bilməyən sosial baxımdan müdafiəsiz vətəndaşlar, gənclər və qadınlar üçün ildə 300 min lari ayrılmasını və Aİ-yə daxil olmağı nəzərdə tutur. Beləliklə, bu dörd prtiya seçki nəticələrini tanımadığını bəyan etdi. Gürcüstanın teleqram kanalları yazır ki, 65 müxalifət deputatı Gürcüstan parlamentinə girməyib və parlament birpartiyalı olacaq. Belə desək, "Gürcü arzusu" opponentlərinin əks mövqeyini nəzərə almayacaq.

Gürcüstanın baş naziri Kobaxidzenin açıqlaması da təsdiq edir ki, hazırkı hökumət hakimiyyətdə qalmaqdan ötrü hər bir halda işini quracaq: "Nə partiya məzmununa, nə də insan resursuna görə, onların (müxalifətin) heç biri parlamentdə işləməkdə maraqlı deyil, ona görə də parlamentə daxil olub-olmayacağına özləri qərar verməlidirlər. Biz buna vaxt itirməyəcəyik, elə ya belə parlament legitim olacaq".

Bir sözlə, "Gürcü Arzusu" müxalifətin deputat mandatlarından imtina qərarından məmnun qalıb. "Mən bütün müxalifətçilərə parlamentə daxil olmamağı tövsiyə edirəm. O zaman heç olmasa normal iş mühitimiz yaranacaq və biz təxribatdan qorunacağıq", deyə hakim partiyanın icraçı katibi Mamuka Mdinaradze bildirib. Daha doğrusu, məzələnib...

Heç də təəccüblü deyil ki, rusyönlü varlıqlar müxalifətin olmamasını "normal iş mühiti" adlandırırlar. Onların fikrincə, müxaliffətin parlamentə girməməsi "təxribatdan qorunma" anlamına gəlir.

Göründüyü kimi, Kobaxidzenin açıqlaması artıq "Gürcü arzusu"nun müxalifətdən seçkilərdə qalib gələn şəxslərin parlamentə gəlib-gəlməməsini saya salmayacağını, ictimai narazılığa baxmayaraq hökumətin Rusiyanın forpostu olmaq tendensiyasını davam etdirəcəyini bəlli edir.

Qərbli müşahidəçilərin də baş verənlərə necə baxdığı maraqlıdır. Onlar hakim partiyanın qələbəsinin səbəbini belə şərh edirlər. "Qütbləşmiş media mühiti seçicilərin seçim etməsinə mane oldu, səsvermə günü hər şey yaxşı təşkil olundu, vəziyyət gərgin idi, gizli səsvermə prosesi pozuldu", deyə fransız siyasətçi Paskal Alizar bildirib.

İİR və NDI Gürcüstanda parlament seçkiləri ilə bağlı ilkin hesabatları təqdim ediblər. Bəyanatda ölkədə inzibati resurslardan istifadə edildiyi, partiyaların qeyri-bərabər şəraitdə olduğu, seçicilərin, xüsusən də müxalifəti dəstəkləyənlərin təhdid edildiyi, qəbul edilmiş qanunvericilik dəyişiklikləri ilə bağlı Mərkəzi Seçki Komissiyasına etimadın aşağı səviyyədə olduğu qeyd edilib. NDI-nin bəyanatında, "Seçkilərdə fəallıq yüksək olub, bu, gürcülərin ölkədə demokratiyanı dəstəklədiyini göstərir. Müşahidəçilər ötən seçkilərlə müqayisədə daha çox qanun pozuntusunu müşahidə ediblər. Gürcü xalqı göstərdi ki, demokratiyanın möhkəmlənməsini istəyir və hamı bu fikrə hörmətlə yanaşmalıdır. Parlament bu fikrə hörmət etməlidir. -Xarici agentlər haqqında- qanunu ləğv etməli, hər kəsə öz fikrini bildirmək, o cümlədən seçkinin nəticələri ilə razılaşmamaq imkanı verilməlidir", deyə bildirilir. Bəs bundan sonra vəziyyət Qərbyönlü qüvvələrin xeyrinə dəyişərsə, qlobal parçalanma kontekstində Gürcüstanda intibah mümkündürmü?

Məsələn, Ermənistan, Qazaxıstan Aİ, ABŞ, Çin və Rusiya maraqları arasında manevr edirlər. Amma bu manevr ondan irəli gəlir ki, onların başçıları əsl milli liderdirlər. Buna görə də öz dövlətlərinin gələcəyini düşünən liderlər onu mümkün qədər rus qüllələrinin zəhərli tüpürcəklərindən və onların əyri müşayiətçilərindən qoruyur, nəticədə müxtəlif regional və qlobal oyunçular üçün çoxsaylı əks çəki daşları qoyurlar. Lakin "Gürcü arzusu" vətənpərvərlikdən uzaqdır: bu, klassik populist partiyadır, Moskvadan "pul əmmək" üçün Putinin imperiya ruhunu sığallayır. Bidzina İvanaşvili Rusiyaya qarşı heç bir əks tarazlıq yaratmır: Gürcüstanı imperiya faşizminin ağzına yem kimi atır. Gürcüstan Saakaşvilinin dövründə iqtisadi sektorun sürətli inkişafı üçün yaxşı potensial nümayiş etdirdi. Bu ölkə özünü demokratik yollarla korrupsiya və cinayətdən təmizləyən regional "mirvari" ola bilərdi. Lakin Saakaşvili hakimiyyətimim sonu "sovet praktikasına" - total korrupsiyaya və "Moskva" elitasının ağuşuna qayıdış nöqtəsi oldu. Bu, uçuruma aparan yoldur.

İndi Gürcüstana müxtəlif oyunçuların maraqlarının tarazlığı lazımdır, amma "Gürcü arzusu" bunu həyata keçirməyə belə cəhd etməyəcək. Hələ bizim rusbaş deputatların Gürcüstandakı seçkilərə hansı xarakterdə köməyə getmələri xüsusi qınaq obyekti olmalıdır. Saxtakarlığın şah əsərini yaradan MSK-nın, Azərbaycan seçki sisteminin ikrah doğuran "saxtakarlıq inciləri" hansı üzlə Gürcüstandakı seçkiləri müşahidə etməyə təşrif buyurublar... Saxta deputatların gürcü seçicisinə nəsə verə biləcəyi özü böyük bir sual işarəsidir. Yəqin ki, özləri üçün ovduqları umacdan "Gürcü arzusu" üçün də ovublar. Özü də Putinin diqtəsiylə.

Bütün baş verənlərlə yanaşı, Rusiyanın yanına çəkilməklə Gürcüstanın Avropa üzvlüyü prosesinin dayandırılması açıqlamasından sonra vizasız gediş-gəlişin də dayandırılacağı məlumdur. Sözsüz ki, Gürcüstanın Aİ-yə üzvlüyünün dayandırılması vizasız gediş-gəliş güzəştindən istifadə edərək Avropaya işləməyə gedən əmək miqrantlarına zərbə olacaq. Bu isə Gürcüstanın büdcəsinə zərərdir. Avropaya gedən əmək miqrantları Avropa bazarında öz ölkəsində tapmadığı iş imkanlarını əldə edir, bir müddət çalışdıqdan sonra əlində topladığı sanballı maliyyə ilə dolanışığını yaxşılaşdıran Gürcüstan vətəndaşları həm ölkə büdcəsinə töhfə verir, həm də qazandığı pulla öz ölkəsində biznes, yaxud əmlak əldə edirdi. Amma Aİ- üzvlüyünün ləğv edilməsiylə bu şansını itirən vətəndaşlar Gürcüstan büdcəsi üçün yük olacaq. Bəs Gürcüstanın indiyə qədər ağırlığını hiss etmədiyi əmək mqirantları bundan sonrakı ölkə büdcəsi üçün nələr vəd edir? Əlbəttə, Gürcüstan büdcəsinə avro gətirən əmək miqrantları ölkələri rus forpostuna çevrildikdən sonra bu şansı itirəcəklər. Bu isə rusyönümlülüyün gətirdiyi "imtiyaz" və "töhfə"dir. Çünki harada Rusiya varsa, orada saxtakarlıq hökm sürür. Harada Rusiya varsa, orada zəlalət və rəzalət meydan sulayır.

**Ülviyyə ŞÜKÜROVA**



# Balıq məhsullarının qiymətində artım gözlənilir

**Azərbaycanda diri və soyudulmuş balıq növlərinin idxalına yeni gömrük rüsumu müəyyən olunub. Nazirlər Kabinetinin qərarına əsasən, bu il oktyabrın 15-dən 2026-cı il iyunun sonuna kimi bir sıra diri və soyudulmuş balıq növləri üzrə idxal gömrük rüsumu 0-dan 15 faizə yüksəldilib.**

Rəsmi qurumlar iddia edir ki, son illər ölkədə balıq istehsalı artıb. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, 2023-cü ildə Azərbaycanda 66 min 452 ton balıq ovlanıb. 2022-ci ildə bu göstərici 59 min 903 ton olub. Ovlanan balıqların cəmi 4 min tonu (qalanı fiziki şəxslərin) müəssisələrin payına düşür.

Məlumata əsasən, göl və nohur balıqçılığı ilə məşğul olan hüquqi, fiziki şəxslərin sayı isə 2023-cü ildə 2022-ci ilə nisbətdə bir vahid azalaraq 107 təşkil edib. Göl və nohurların səthinin sahəsi də azalıb. Həmin göstərici 2022-ci ildə 1 min 393 hektar idisə, 2023-cü ildə 1 min 380 hektara düşüb. Göl və nohurlardan tutulmuş balığın miqdarı da 466 tondan 321 tona qədər azalıb.

Ölkədə 2000-ci ildə 12 ədəd balıqartırma müəssisəsi olubsa, hazırda bu müəssisələrdən cəmi üçünün aktiv fəaliyyət göstərdiyi bildirilir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sağlam insan üçün illik balıq istehlakını 28 kiloqram müəyyən etsə də, Azərbaycanda bu, dəfələrlə azdır. DSK-nın məlumatına görə, 2023-cü ildə Azərbaycan əhalisi adambaşına orta hesabla cəmi 8 kiloqram balıq və balıq məhsulları istehlak edib.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-avqust aylarında Azərbaycana 25.8 milyon dollar dəyərində balıq növləri, xərçəngkimilər, molyusklar və digər su onurğasızları idxal edilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 6.5 milyon dollar çoxdur. Bu dövr ərzində ölkənin balıq və dəniz məhsulları ixracı isə 1.9 milyon dollar dəyərində olub. Bu da ötən ilin eyni dövrünə görə 2.3 dəfə çoxdur.

Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmli "Hürriyyət" qəzetinə bildirib ki, ümumiyyətlə, hər hansı məhsulun idxalına rüsum tətbiq edilirsə, onun qiyməti də artır: "Bu, təbiidir. Bildiyimiz kimi, balıq idxalı da inhisardadır, onunla xüsusi adamlar məşğul olur. Əsasən də oliqarx məmurlar. Əgər balığın idxal rüsumu 15 faiz artıbsa, yerli bazarda onun qiyməti 20 faiz artacaq".



Akif Nəsirli: "İdxal olunan balığın qiymətində rüsumun təsiri qədər bahalaşma müşahidə ediləcək"



Vahid Məhərrəmli: "Əgər balığın idxal rüsumu 15 faiz artıbsa, yerli bazarda onun qiyməti 20 faiz artacaq"

Ekspert deyir ki, Azərbaycan kifayət qədər balıq istehsal edə bilmir: "Beynəlxalq norma 18-20 kiloqram arasında dəyişir. Bu, Ümumdünya Səhiyyə təşkilatının qeyd etdiyi normadır. Son bir neçə ildə Birləşmiş Millətlər Təşkilatı bir çox layihələr həyata keçirib. Göl balıqçılığının genişləndirilməsinə nail oldular. Təssüf ki, Azərbaycanda adam başına 6 kiloqram balıq istehsal olunur. Bu da normadan 3 dəfə azdır.

Balıqçılıqda müəyyən problemlər var. Göllərin yaradılması, o göllərə suyun verilməsi və s. Bildiyimiz kimi, balıq ovu da ciddi şəkildə aşağı düşüb. Bu, yalnız Azərbaycanla bağlı deyil, dünya da okean, dəniz balığı kəskin şəkildə aşağı düşüb. Demək olar ki, dünyada 80 faiz balıq göllərdə yetişdirilir. Bu halı da Azərbaycan nəzərə almalıdır. Ona görə Azərbaycan çalışmalıdır ki, daxildə balıq istehsalını artırsın. Niyə Vyetnamdan idxal olunan aşağı keyfiyyətli balığı istehlak etməliyik?!"

Vahid Məhərrəmli qeyd edir ki, Xəzər dənizində qəfəs balıqçılığı üçün imkan var: "Xəzər dənizində balıq azalıbsa, o demək deyil ki, balıq istehsalını təşkil etmək mümkün deyil. Mümkündür. Xəzər boyu göl balıqçılığını inkişaf etdirmək olar. Belə halda balığın keyfiyyəti də yaxşı olar. Əksər ölkələr bu təcrübədən bəhrələnirlər. Vyetnamın özü də bu yolla balıq istehsalını artırıb. Biz bunu niyə etməyək?

10 il əvvəl Amerika Birləşmiş Ştatları (ABŞ) mütəxəssisləri ilə birlikdə layihə həyata keçirdik. Həmin layihənin yekununda dövlətə təkliflərimizi vermişdik ki, necə etmək olar, balıq istehsalı artsın, balığın keyfiyyəti yaxşılaşsın, əhali üçün əlçatan olsun. Yəni belə olan halda idxal bir qədər çox olmayacaq, daxili bazara da təsiri olmayacaq".

Məlum olduğu kimi, idxal olunan balıq məhsulları əsasən restoran və şadlıq evlərində istifadə olunur. Bu halda, idxal rüsumunun artımı şadlıq saraylarında qiymətlərin artmasına təsir edəcək?

Vahid Məhərrəmli vurğulayır ki, şadlıq evlərində qiymətlər onsuz da yüksəkdir: "Düşünürəm ki, menyünü müştərinin istəyinə uyğun tətbiq edəcəklər. Əgər müştərinin imkanı varsa, qiymət birmənalı olaraq artacaq. Müştəri deyə bilər ki, qiyməti artırma, həcmini isə azalt. Belə olduqda çəkinin azalması hesabına artan qiymət kompensasiya ediləcək". "

İqtisadçı Akif Nəsirli isə hesab edir ki, rüsumların artırılması xaricdən idxal olunan balıq məhsullarına tələbatın artması ilə bağlıdır: "Dövlət düşünür ki, balıqçılıq ölkə daxilində kifayət qədər inkişaf edib. Balıq tutan sahibkarlar var, onların daxili bazarda müdafiəsinə ehtiyac duyulub. Yəni ölkə daxilindəki balıqları insanlar almır, xaricdən idxal olunan balıqlara üz tuturlar. Daxili balıqçılar da müştərisiz qalır. Amma reallıq odur ki, Azərbaycan daxilində balıq istehsalı kifayət qədər deyil, tələb təklifi üstələyir. Ona görə də daxili balıqların qiyməti artır. Amma hökümət elə düşünür ki, guya, idxal balığı daxili balığı üstələyir, daxili balığın satışına maneə olur. Ona görə də rüsum tətbiq edirlər ki, daxili bazarda yerli məhsul xarici məhsuldan daha üstün rəqabət imkanına malik olsun. Hökümətin ortaya qoyduğu rəsmi düşüncı bundan ibarətdir.

> "Dövlət düşünür ki, balıqçılıq ölkə daxilində kifayət qədər inkişaf edib. Balıq tutan sahibkarlar var, onların daxili bazarda müdafiəsinə ehtiyac duyulub. Yəni ölkə daxilindəki balıqları insanlar almır, xaricdən idxal olunan balıqlara üz tuturlar. Daxili balıqçılar da müştərisiz qalır..."

Amma məsələ odur ki, kifayət qədər məhsul istehsal olunmur. Nəticə ondan ibarətdir ki, idxal olunan balığın qiymətində rüsumun təsiri qədər bahalaşma müşahidə ediləcək. Bu bahalaşma da yerli məhsulların bahalaşmasını sürükləyəcək. Ümumilikdə, ölkə daxilində balığın qiyməti bahalaşacaq".

Ekspert hesab edir ki, bu bahalaşma iaşə sektoruna da təsir edəcək. O cümlədən də şadlıq saraylarında menyünün bahalaşmasına gətirib çıxara bilər.

**Aynurə İSMAYIL**

# Azərbaycanı məhvə aparan təhlükəli qərarlar

## Əhali artımının qarşısını almaq üçün ailə dəyərləri necə məhv edilir...



Beyni "korşalmış", TV-lərdə səhərdən axşama qədər əxlaqsızlığı təbliğ edən bayağı verilişlərlə beyni yuyulan, dəyərlər sistemi alt-üst edilən, qarşısında hədəfi, ona çatması üçün can atmağa ilhamlandırılmayan, ideoloji boşluqda çapalayan "vətəndaş" özü üçün hansı günü ağlaya bilər?

Azərbaycanın əhalisinin azalması, cılızlaşması, mənəviyyatsızlaşması üçün aparılan məqsədyönlü çalışma da ölkəmizin gələcəkdə sıradan çıxmasına xidmət edir. Çünki belə fərd onun başına açılan heç bir oyunu sorğulamayacaq...

Son on ildə dünyanın həddən çox əhali artımı təhlükəsi problemi ilə üz-üzə olduğu qəbul olunmaqdadır. Belə bir nəzəriyyə hökm sürür ki, nəzarət olunmayan əhali artımı dünyanın onsuz da qıt olan mənbələrini istismar edəcək və ətraf mühitin axırına çıxacaq. Cilovalana bilməyən əhali ildən-ilə daha çox qida, enerji və digər qaynaqlara ehtiyac duyacaq, nəticədə qlobal istiləşmə və başqa iqlim fəlakətləri planetin sonunu gətirəcək.

Əhali artımının qarşısının alınması zərurəti ilə bağlı demək olar ki, bütün ölkələr həmfikirdir. Yəqin ki, bir çoxunuz KİV-lərdən illər ərzində arasıkəsilmədən təkrarlanan və beyinlərə həkk olunan bu fikirləri eşitməmiş olmazsınız. Böyük ehtimalla, bir çoxunuz düşünürsünüz ki, bəşəriyyət olaraq başımıza gələn bir çox təbii fəlakətlərin səbəbi həddən çox insan artımı, onların nəzarətsiz şəkildə resursları istifadə etməsidir. Hətta bir çoxumuz da cəmiyyətdəki problemlərin əsasən çoxuşaqlı ailə sahiblərinin şəhvətindən, onların doğub-törətmək həvəsindən qaynaqlandığını düşünürük. Hətta onları bunun üçün mühakimə belə, edirik. "Saxlaya bilməyəcəyin uşağı niyə dünyaya gətirirsən", - deyə onları ittiham edirik.

Halbuki, məsələ heç də belə deyil. Çünki son illərdə dünya üzrə əhali artımı sürətlə üzüyuxarı yox, üzüaşağı gedir. Yalnız Hindistan istisna olmaqla. Doğrudur, əvvəllər əhali sayına görə Çin irəlidə idi, amma artıq Hindistan onu geridə qoyub. Çoxuşaqlı ailə modeli artıq aktuallığını itirib, inkişaf etmiş ölkələrdə əhali sürətlə yaşlanır və köklü dəyişikliklər əmələ gəlib. Bir sıra inkişaf etmiş ölkələrdə insan ömrü uzanıb, doğum sayı aşağı düşüb, yaşlanan əhalinin yerinə gənc nəsil gəlmir. Bu problem ən çox Avropa və Yaponiya kimi inkişaf etmiş ölkələrdə yaşanmaqdadır.

*(Əvvəli ötən sayımızda)*

Bəs, guya, qarşısıalınmaz əhali artımı trendi yalanının sırınması nəyə xidmət edir? Eləcə də sadalanan faktorlar yetmirmiş kimi, LGBT kimi əxlaqsızlıq meylinin, narkomaniyanın, alkoqolizm kimi pis, zərərli vərdişlərin təbliğatının məqsədi nədir? Əhali artımı nağılı kimə, nəyə xidmət edir?

Eləcə də dünya səviyyəsində hakimiyyətlər eyni məqsədi daşıya bilərlər. Çünki qlobal səviyyədə yeni sosializmin gəlişinin "müjdələri" verilib. Dünya səviyyəsində də hakimiyyətlərin qarşısında həmrəy olan, səfərbər olunmuş, bir yumruq halına gəlmiş, soğrulayan, öz hüquqları üçün haqq-hesab çəkmək gücündə olan qüvvənin olmasında heç kim maraqlı deyil...

Halbuki, yazılanlardan da göründüyü kimi, əhali artımı tempi çoxdan üzüenişə gedir. Xüsusilə də Azərbaycan kimi kiçik ölkələrdə əhalinin artmaması üçün əldən gələn hər şey edilir - tibbi xidmətin keyfiyyətsizliyi, təhsilin darmadağın olması, milli-mənəvi dəyərlər sisteminin xarabazara dönməsi, dövlətin ana və uşağın sosial müdafiəsi siyasətinin olmaması, gənclərin ailə qurmasına dəstək olacaq proqramların olmaması, korrupsiya və iqtisadi cinayətlərə bulaşan yüksək rütbəli məmurların cəzalandırılması mexanizminin iflasa uğraması kimi amillərin meydan sulaması gənclərin ölkədən getməsinə və ölkənin insan resursu baxımından kasıblamasına bilavasitə şərait yaradır.

Təsəvvür edin ki, insanlar və hökumətlər tərəzinin iki tərəfidir. Bu hər yerdə belədir - Avropada, Amerikada, Asiyada... Hökumətlərin idarə etdiyi toplumların böyük qismini təşkil edən insan resursu dayanmadan azalırsa, hökumətin dayağı - dəyənəyi funksiyasını yerinə yetirən hüquq-mühafizə orqanlarının da bu insan resursunun bir hissəsindən təşkil edildiyini, üstəlik narkotiklərin yayılmasıyla bir çox insanın düşünmə qabiliyyətini itirib zombiyə çevrildiyini, baş verənlərə təsir gücünü itirdiyini nəzərə alsaq, belə mənzərə yaranır ki, hökumətlər daha çox qarşısında onu sorğulayacaq, orta əsrlərdəki kimi onu gilyatinə, yaxud dar ağacına, balta altına aparacaq canlı qüvvənin olmasının altını qazıyır.

Eləcə də dünya səviyyəsində hakimiyyətlər eyni məqsədi daşıya bilərlər. Çünki qlobal səviyyədə yeni sosializmin gəlişinin "müjdələri" verilib. Dünya səviyyəsində də hakimiyyətlərin qarşısında həmrəy olan, səfərbər olunmuş, bir yumruq halına gəlmiş, soğrulayan, öz hüquqları üçün haqq-hesab çəkmək gücündə olan qüvvənin olmasında heç kim maraqlı deyil.

Bu, bizdə xüsusilə qabarıq görünür. Məhz bu səbəbdən də təhsilin keyfiyyəti ölüvay, sürünən durumdadır. Təhsil nə qədər toplumu hansısa istiqamətə yönləndirən, onu xəmir kimi yoğurub istənilən şəklə salan vasitə kim istifadə olunsa da, həm də insana düşünmə, sorğulama qabiliyyəti verir. Beyni "korşalmış", TV-lərdə səhərdən axşama qədər əxlaqsızlığı təbliğ edən bayağı verilişlərlə beyni yuyulan, dəyərlər sistemi alt-üst edilən, qarşısında hədəfi, ona çatması üçün can atmağa ilhamlandırılmayan, ideoloji boşluqda çapalayan "vətəndaş" özü üçün hansı günü ağlaya bilər? Çökmüş, alver obyektinə çevrilmiş məktəblərdə tərbiyələndirilməyən, təlim-tədris-təhsildən məhrum edilən, qəsdən narkoitiklərin girdabına salınmış vətəndaşa xoşbəxt gələcəyi nə, yaxud kim vəd edir? İnsanımız üçün dizayn edilən bu gələcək onları vətəndaşa yox, rəiyyətə çevirmək üçündür. Hazırda Azərbaycanda bu tendensiyanı rusyönümlülük diqtə edir. Vətəndaşı zombiləşmiş beyni olan savadsız rəiyyətə çevirmək birbaşa Ruisyanın dəyirmanına su tökür. Məqsəd də odur ki, insanlar ölkəmizə diqtə olunan rus istibdadını sorğulamasın. Boynunu onu kəsəcək qəssabın bıçağına sürtərək, "kəsiləcəyi anı" gözləsin. "Elə sovet yaxşı idi" deyə-deyə bəzi yaşlılar tərəfindən sovet dövrü nostalgiyasının geri dönüşünü həsrətlə aşılayan, beyinlərində toxumları hər vəchlə saxlanılan rus məktəblərində atılmış rus heyranlığını cücərtilərini böyüdən beyniboş manqurtlar hansı müstəqilliyi axtaracaqlar?

Sonda isə onu qeyd edək ki, Azərbaycanın əhalisinin azalması, cılızlaşması, mənəviyyatsızlaşması üçün aparılan məqsədyönlü çalışma da ölkəmizin gələcəkdə sıradan çıxmasına xidmət edir. Çünki belə fərd onun başına açılan heç bir oyunu sorğulamayacaq?

Dünyada baş verən bütün proseslərə rəğmən, ölkənin zəifləməsi, gələcəkdə də yoxa çıxması üçün yox, mövcudluğumuzun saxlanması üçün nəhəng çalışmalar aparılmalıdır. Əlbəttə, əgər dövlətin, ölkənin gələcəyini düşünənlər varsa... Əgər dövlətə biznes obyekti kimi yox, müqəddəs məfhum kimi baxanlar, ona əxlaqı, ürəyi ilə bağlı olanlar varsa...

**Ülviyyə ŞÜKÜROVA**





# Banklar sahibkarları necə qarət edir?

*“Bütün kəşflər zərurətdən yaranır”*
Fridrix Engels

Cəmiyyətdə ilk bankların yaranması bir çox insanların, ilk növbədə isə sahibkarlıqla məşğul olanların və sahibkarlıqla məşğul olmaq istəyib, lakin bunun üçün maliyyə vəsaitinin olmaması və ya bu iş prosesinin başa çatması üçün yetərli olmaması zərurətindən meydana gəlib. Borc adlanan iqtisadi kateqoriya bəşər övladının insan olaraq şüurlu həyat sürməsinin hələ ilkin mərhələlərindən belə, mövcud olmuşdur. Bu borclar ilkin mərhələlərdə əmək alətləri, ərzaq, paltar və s. kimi natural formada, həm də borcun alındığı miqdar, dəyər və digər ölçülərdə qaytarılması şərti ilə verilib.

Pul meydana çıxıb, əmək bölgüsü genişlənərək manufaktura sexləri kimi kollektiv istehsal vahidləri yaranıb, artdıqca bu istehsal sahələri sahiblərinin vaxtaşırı müxtəlif səbəblərdən və müxtəlif istehsal məqsədləri, tələbatları üçün müvəqqəti əlavə pula ehtiyacları yaranmışdır. Eyni zamanda sahibkarlıq və ticarətlə məşğul olan bir sıra sahibkarlarda da qısa və ya nisbətən uzun müddətə dövriyyədən artıq qalıb, müvəqqəti istifadə edilməyən pul kütləsi yaranmışdır. Belə bir şərait sələmçilərin və sələm kapitalının yaranmasını labüd etmişdir. Hər bir sələm kapitalının sahibi verdiyi borcun qarşılığında borcludan verdiyi pulu, girov olaraq qiymətli əşya, yaxud nəsə almaqla onu sığortalamaqdan başqa, verdiyi pula görə əlavə pul məbləği, yəni sələm faizi də təyin etmişdir.

Fərdi qeyri-leqal sələmçilər bu gün də mövcuddur. Lakin, eyni zamanda, bank olmayan kredit təşkilatları, lombardlar hüquqi şəxs olaraq mövcud olub leqal və qanuni fəaliyyət göstərən, fərdi və kollektiv kapitala sahib olmaqla sələmçilik fəaliyyəti ilə məşğul olanlar da var. Təbii ki, onların fəliyyəti respublika qanunvericiliyi ilə tənzimlənir.

Kapitalizm quruluşunun yaranması ilə, xüsusilə ticarətin sürətlə genişlənərək dövriyyələrində çox iri pul kütləsinə yaranan tələbatı həm miqdar, həm də təşkilati baxımdan ayrı-ayrı sələmçilərin ödəyə bilməməsi bankların yaranmasını zəruri etmişdir. Ayrı-ayrı fərdlərdən fərqli olaraq, banklar fiziki şəxs deyil, maliyyə təşkilatı olaraq bir və ya bir neçə kapital sahibini özündə birləşdirən hüquqi şəxs olaraq meydana gəlmişdir.

Banklar yarandıqdan sonra ilk dövrlərdə ancaq faizlə kredit (sələmlə borc - Ş.Q.) verməklə məşğul olsalar da, tədricən inkişaf edərək öz fəaliyyət sahələrini də çoxaltmışdır. Bu gün banklar əhalinin əmanətlərinin faizsiz, faizi ödəməklə, müddətli, müddətsiz qorunmasını, pul köçürmələrini, valyuta mübadiləsini həyata keçirir, fond birjalarının alqı-satqısında fəal iştirak edirlər.

Mən bankların yaranması və bu prosesin ibtidai inkişafı haqqında qısa məlumat verdim ki, bu sahədə bilgisi olmayan oxucuda bəhs edəcəyim məsələnin mahiyyəti barədə obyektiv fikir formalaşa bilsin. Bəhs edəcəyim məsələnin ümumilikdə mənim subyektiv təxəyyülümün məhsulu olmayıb, faktiki sənədlərə əsaslanan reallıq olması üçün mən Azərbaycanın rayonlarının bir kəndində fermerə verilən bank kreditinin sənədləri əsasında fikrimi izah edəcəyəm.



Heyvandarlıq, daha dəqiq desək, iribuynuzlu mal-qara saxlamaqla məşğul olan fərdi sahibkara bank 2,5 il müddətinə, aylıq 1,8 faiz kredit sələmi ilə 20.000 (iyirmi min) AZN (manat) borc vermişir. 01.01.2024-cü il tarixdə sahibkara verilən borc üçün 31.01.2024-cü il tarixi də daxil olmaqla, 30.06.2024-cü il ərzində hər ay ondan 360 AZN sələm faizi olaraq bank tərəfindən pul alınır. Bu, altı ay ərzində 2160 AZN təşkil edir. Buna əvvəlcədən rəsmən “komissiya haqqı” olaraq 200 AZN də alındığını əlavə etsək, bu məbləğ 2360 AZN təşkil edir. Bu azmış kimi, sahibkara heç bir sənəd təqdim etmədən, ondan əvvəlcədən 1000 (min) manat də bankda hesab açmaq və sığorta adı ilə pul alınır. Yeni vətəndaşa 20 000 AZN kredit verilməsi üçün ondan 1200 AZN pul elə ilk gündən ondan alınaraq, ona faktiki olaraq 18 800 AZN pul verilir. Bundan sonra altı ay müddətində ondan kredit faizi alındığını da buna əlavə etsək, sahibkardan altı ay geriyə alınan pulun ümumi məbləği 3360 AZN təşkil edir.

Dişi dana təxminən 2 yaş civarında buğaya gəlir. Belə dananın da bazarda satış qiyməti 1100-1200 AZN arasında dəyişir. Bankdan 20 000 (iyirmi min) kredit götürən sahibkar 15-16 dana alır ki, bir il yemləyib, qulluq etdikdən sonra onlardan bala alacaq. Onlar balalayandan sonra südünü sataraq kredit faizlərini verəcək, yeni doğulan danalar iki yaşına çatdıqda da onları sataraq kreditini tam bağlayacaq. Sonra ilk sıra aldığı 15-16 dana təsərrüfatını böyütmək üçün kapital olaraq qalacaq. Yəni kənd təsərrüfatı sahəsində hər hansısa mənbədən ona kapital qalmayan kənd sakininin, xüsusilə kəndli gənclərin orta məktəbi və ya hansısa orta ixtisas, ali təhsil müəssisəsini bitirdikdən sonra doğma kəndində qalıb yaşamaq, özünə kənd təsərrüfatının hansısa sahəsi üzrə şəxsi təsərrüfatını quraraq müstəqil yaşamağında bank kreditlərinin ən böyük əhəmiyyəti məhz bundadır. Həm də bu bütün ölkənin kənd təsərrüfatının sürətli inkişafı, ölkəyə xaricdən geni dəyişdirilmiş, insan orqanizmi üçün təhlükəli, zərərli kənd təsərrüfatı mallarının məcburən idxal zərurətini aradan qaldırmaqla bərabər, beynəlxalq xarici valyutanın ixracının əhəmiyyətli dərəcədə azaldılması deməkdir. Üstəlik, kənd təsərrüfatının yüksək səviyyədə inkişafı həm də ölkənin ərzaq təhlükəsizliyini, bu sahədə müstəqilliyinin təminatı deməkdir.

Kənd təsərrüfatının yüksək səviyyədə inkişafının ölkəmiz üçün strateji əhəmiyyəti olan məziyyətləri çoxdur. Təkcə onun millətimizin, ölkəmizin düşmənlərinin bizi çörək ilə imtahana çəkməsinin qarşısını ala biləcək yeganə sahə olduğunu dilə gətirmək, məncə, yetərlidir. Qısa sözlə, banklar həyatımızın təminatının ən əsas sahələrindən biri olan kənd təsərrüfatının sürətli inkişafını təmin edə biləcək və etməli olan “maliyyə aləti”dir. Kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan sahibkarların bağladıqları kredit müqavilələrinin məzmununa hətta ötəri baxdıqda isə qarşımızda canlanan mənzərə heç də ürəkaçan olmur. Yəni verilən kreditlərin şərtləri sahibkarların öz təsərrüfatını möhkəmləndirib, inkişaf etdirməsinə münbit şərait yaratmaq, onu bankdan aldığı pulla istehsalın heç olmasa bir dövrünü başa vuraraq krediti və onun faizini ödəmək əvəzinə, bank verdiyi pulun bir hissəsini hələ ona pul verərkən alır. Bir hissəsinə müəyyən etdiyi faizi, həm də borc alan üçün o qədər də əhəmiyyətsiz olmayan hissəsini, sahibkarın artıq əmtəə istehsal etdiyi vaxtdan deyil, əmtəə istehsalına hazırlığın zəruri texnoloji olan dövründə alır. Bu da fermeri çox zaman əmtəə istehsalı prosesini başa çatdıra bilmədən aldığı heyvanları sataraq bankın kreditini ödəməyə məcbur edir. Bu halı türk aqillərinin, - “Aldım qoz, satdım qoz, mənə qaldı şaxşaxı” (yəni qozların bir-birinə dəyərək çıxardığı səs - Ş.Q.), deyərək, istehza ilə insanların bu durumunu ifadə etdiyi deyimlə, bir ilə yaxın səmərəsiz zəhmət çəkməyə məcbur qaldıqlarını ifadə edirlər.

Cəmiyyətin şüur səviyyəsinin bu günkündən müqayisə edilməyəcək, ictimai münasibətlərin səviyyəsinin bu günkündən yüzlərlə dəfə primitiv, sadə olduğu bir dövrdə insanaların çıxılmaz, çətin durumlardan çıxarılması zərurətindən yaranaraq, hər iki tərəf - borcverən və borc alana ancaq xeyir gətirən sələm kapitalının sələmlə borc verilməsi şərtləri, XXI əsrin bu günkü yüksək inkişaf səviyyəsi şəraitində vətəndaşlarımızın iqtisadi cəhətdən ayağa duraraq öz zəhməti hesabına normal insan həyatı yaşamaq imkanından əlavə, öz təsərrüfatlarını genişləndirməklə bərabər, ölkənin iqtisadiyyatının ən mühüm sahələrinin də güclənməsini təmin etməyə yönəli məzmun və mahiyyətdə olmalıdır.

*(Ardı var)*

**Şapur QASİMİ**



# Aqil Babayevə qarşı saxta ittihamlar ifşa olunur

## Şübhəli ittihamlar və sübutların yoxluğu

**Aqil Babayevin 12 il müddətinə azadlıqdan məhrum edilməsinə səbəb olan cinayət işi ölkəmizdə hüquqi sistemin ədalət və şəffaflıq prinsiplərinə uyğunluğu barədə mübahisələrə səbəb olub. Babayevə qarşı irəli sürülən ittihamlar və məhkəmə prosesində üzə çıxan sübut çatışmazlıqları bu işin yenidən araşdırılmasını tələb edən əsas səbəblərdən biridir. Təqsirləndirilən şəxs bu ittihamların əsassız olduğunu iddia edir və məhkəmə prosesinin ədalətsiz şəkildə aparıldığını vurğulayır.**

Babayevin müdafiəçiləri də ona qarşı sürülən iddiaları əsassız və sübutu olmayan ittihamlar kimi dəyərləndirir. Müdafiə tərəfi qeyd edir ki, Babayevin dələduzluq əməli törətməsi barədə heç bir əsaslı sübut yoxdur və minlərlə mətn mesajında belə bir iddianın dəstəkləndiyi təsbit edilməyib.

### Sübut çatışmazlığı və şübhəli ifadələr

Babayevə qarşı irəli sürülən əsas ittihamlardan biri - müxtəlif insanlardan pul alınması ilə bağlı ittihamların sübutunun zəifliyi və zərərçəkən şəxslərin ifadələrindəki şübhəli məqamlarla bağlıdır. Məhkəmə prosesində bəzi zərərçəkənlərin ifadələrinin mübahisəli olduğu, onların ifadələrinin ziddiyyətlər və təkrarlanan səhvlərlə dolu olduğu qeyd edilir. İbtidai istintaq və məhkəmə prosesi zamanı isə iddia edilən cinayət faktlarına dair konkret sübutların tapılmaması müdafiə tərəfinin iddialarını gücləndirir.

Digər tərəfdən, Babayevin restoran biznesində - "Şaurma 1" restoranlar şəbəkəsində Natiq Sadıqov adlı ortağı ilə yaşadığı kommersiya mübahisəsi bu işin əsasında duran əsas səbəblərdən biri kimi təqdim edilir. Müdafiə tərəfi qeyd edir ki, Sadıqov Babayevin biznesdəki payını ələ keçirmək üçün ona qarşı saxta cinayət işi açdırıb və prosesdə müəyyən yüksək vəzifəli şəxslərin dəstəyi ilə ittihamları irəli sürüb. Bu iddia məhkəmə işinin şəffaflığına dair ciddi suallar doğurur.

Bundan əlavə Anar Aslanov Babayevə qarşı saxta ittihamların qurulmasında əsas iştirakçılardan biri hesab olunur və "zərərçəkmiş" kimi təqdim olunan digər şəxslərlə birlikdə saxta ifadələr verərək Aqil Babayevin evindən oğurluq etməsi faktını ört basdır etməyə çalışıb.

### Məhkəmə prosesində ədalətlilik prinsiplərinin pozulması

Aqil Babayevin müdafiəsi, məhkəmə prosesində dini mövzuda ifadə verən şəxslərin fikirlərinin düzgün qiymətləndirilməməsi və ekspert rəylərinin nəzərə alınmaması kimi hallara diqqət çəkir. Məhkəmə zamanı ekspertlərin iştirak etməməsi, mətnlərin düzgün təhlil edilməməsi və dini məzmunlu ifadələrin yanlış anlaşılması müdafiə tərəfi üçün əsas narahatlıq mənbəyidir. Müdafiəçilər vurğulayır ki, islam dini üzrə savadlı mütəxəssislərin iştirakının olmaması, Babayevin ifadələrinin və yazışmalarının yanlış şərh edilməsinə gətirib çıxarıb.

### İctimai rəy və hüquqi ədalət tələbi

Bu iş cəmiyyət arasında geniş müzakirələrə səbəb olub və ədalət tələb edənlərin sayı artmaqdadır. Ailə üzvlərinin iddialarına görə, Babayevin azadlıqdan məhrum edilməsi barədə verilən hökm ədalətsizdir və prosesdə aparılan araşdırmalar tam şəkildə həyata keçirilməyib. Müdafiə tərəfi, məhkəmədən müstəqil və şəffaf ekspert rəyi ilə mətnşünaslıq ekspertizası aparılmasını, eləcə də "zərəçəkənlərdən" alınan ifadələrin yenidən qiymətləndirilməsini tələb edir.

Bütün bu iddialar işin yenidən araşdırılması, Babayevin üzərindəki ittihamların ədalətli və obyektiv şəkildə araşdırılması zərurətini gündəmə gətirir. Babayevin məhkəmə prosesində dindar şəxslərdən ibarət bir qrup tərəfindən psixoloji təzyiqlərə məruz qalması iddiası və məhkəmə tərəfindən sübut kimi təqdim olunan ifadələrin hüquqi dəyərləndirilməsi məsələsi də işin obyektivliyinə təsir göstərir.

### Ədalətli araşdırma və bəraət tələbi

Aqil Babayevin işində üzə çıxan hallar və sübut çatışmazlığı onun ədalətli məhkəmə hüquqlarının pozulub-pozulmadığı barədə suallara cavab axtarmağa yönəlib. Müdafiə tərəfi sübutların qeyri-kafi olduğunu iddia edərək, Babayevin bəraətini tələb edir. İddiaların ətrafında ortaya çıxan çoxsaylı mübahisələr və məhkəmə prosesindəki çatışmazlıqlar, bu işin yenidən və daha obyektiv şəkildə araşdırılması üçün əsas verir. Bu, yalnız Babayevin taleyi üçün deyil, ölkəmizin hüquqi sisteminin ədalət və şəffaflıq prinsiplərinə nə dərəcədə uyğun işlədiyini göstərən mühüm bir sınaq kimi də qiymətləndirilə bilər.

**Hazırladı: RƏŞAD**

# Bakıda zəbt olunan 52 sot torpaq sahəsi ilə bağlı araşdırma aparılır?

## Teymur Cabbarovun müraciəti qəzetimizdə dərc olunduqdan sonra cinayət işi Nizami Rayon Prokurorluğundan alınıb...



**"Hürriyyət"in ötən saylarının birində "Şəhər prokurorluğu Baş prokurorun birinci müavininin qərarını necə ləğv edib?"sərlövhəli yazı dərc etmişdik. Bakı şəhər sakini Cabbarov Teymur Fəxrəddin oğlu redaksiyamıza müraciət edərək bildirmişdi ki, paytaxtda mərhum atasına məxsus olan 52 sot torpaq sahəsi onun şəriki tərəfindən qanunsuz olaraq satılıb və pulu mənimsənilib.**

O, iddia edirdi ki, 1994-cü ildə Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə atası Cabbarov Fəxrəddin Ziyadxan oğluna Babək prospekti, 2269-cu məhəllədə müddətsiz olaraq istehsalat təyinatlı 52 sot torpaq sahəsi verilib. Bundan sonra "Dədə Qorqud - 10" kiçik müəssisəsinin ərazisi olan həmin torpaq sahəsindən təyinatı üzrə istifadə olunub. Atası rəhmətə gedəndən sonra onun şəriki Ələsgərov Xəlil Məhərrəm oğlu və atasının ikinci həyat yoldaşı Məmmədova Kifayət Məmməd qızı əlbir olaraq, müəssisənin torpaqlarını satıb, pulunu mənimsəyiblər. Sonradan həmin ərazidə qanunsuz olaraq evlər tikilib. Bu hadisədən sonra - 2018-ci ildə o, bacıları Cabbarova Aynur Fəxrəddin qızı və Cabbarova Nuranə Fəxrəddin qızı atalarının qanuni varisləri olaraq öz haqlarını hüquq müstəvisində əldə etməyə qərar veriblər. Bu məqsədlə Nizami Rayon Məhkəməsinə müraciət ediblər. Hakim 27 aprel 2008-ci ildə Elnur Nağıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində onların iddiası təmin olunub. Belə ki, məhkəmə Nizami rayonu, Babək prospekti, 2269-cu məhəllədə yerləşən "Dədə Qorqud - 10" kiçik müəssisəsinə məxsus sahədə inşa edilən evlərin sökülməsi, torpaq sahəsinin boşaldılması haqda qərar qəbul edib...

Daha sonra - 2019-cu ildə Nizami Rayon Prokurorluğu məhkəmənin xüsusi qərardadı əsasında Məmmədova Kifayət Məmməd qızı barəsində cinayət işi açıb: "İstintaqda bir epizod üzrə Məmmədova Kifayət Məmməd qızı Cinayət Məcəlləsinin 178.2.4-cü maddəsi ilə ittiham olunub. Lakin cəmi bir gün sonra Bakı Şəhər Prokurorluğu cinayət işini müstəntiqdən alıb. Müəyyən müddət keçdikdən sonra isə həmin cinayət işinə xitam verilib". Teymr Cabbarov bu fikirdədir ki, Ələsgərov Xəlil Məhərrəm oğlu və Məmmədova Kifayət Məmməd qızı Bakı Şəhər Prokurorluğunda kimlərləsə əlaqə yaradaraq, nəyinsə müqabilində cinayət işini Nizami Rayon Prokurorluğunda xitam etdiriblər. "Bundan sonra, biz Baş Prokurorluğa müraciət etdik. Nəticədə Baş prokurorun birinci müavini Elçin Məmmədov belə bir qərar verir ki, "Nizami rayon prokuroru Pərviz İbayevin cinayət işinin icraatına xitam verilməsi haqqında 24 fevral 2020-ci il tarixli qərarı əsassız olduğu üçün ləğv edilsin və icraat təzələnsin". Həmçinin, E.-Məmmədovun imzası ilə əlavə istintaqın davam etdirilməsi üçün cinayət işi Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinə göndərilib. Lakin Bakı Şəhər Prokuroluğu 1 il 4 ay ərzində müstəntiqlərə həmin cinayət işinin araşdırılması üçün imkan verməyib. Şikayətçi deyir ki, bütün bunlardan sonra Nizami Rayon Prokurorluğunu məhkəməyə veriblər: "Məhkəmə xitam qərarının qanunsuz olduğu haqda qərar çıxarıb. Bu dəfə də cinayət işi uzun müddət gizlədildi və daha sonra yenidən Nizami Rayon Prokurorluğunun istintaq şöbəsinə göndərildi. 2021-ci ildən iş orda olsa da, yuxarıdan verilən göstəriş əsasında Nizami Rayon Prokurorluğu heç nə edə bilmir.

İndi müstəntiqə sual verirəm ki, məhkəmə qərarlarını niyə icra etmirsən? Deyir ki, prokuror bu qərarı icra edəcəyim halda, məndən təqdimat yazacağını bildirib. Bir sözlə, prokurorluq məsuliyyəti müstəntiqin, müstəntiq də prokurorluğun üzərinə atır".

Qeyd edək ki, Teymur Cabbarovun müraciəti qəzetimizdə dərc olunduqdan sonra məlum cinayət işi Nizami Rayon Prokurorluğundan alınıb. Üstəlik, onun özü də Baş Prokurorluğun vəzifəli şəxslərindən biri tərəfindən qəbul olunub və sözügedən cinayət işinin yenidən araşdırılacağı bildirilib.

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: "Hürriyyət" olaraq məsələni diqqətdə saxlayacağıq.**

# “Bir ailənin 4 üzvü İranla mə

“Hürriyyət”in ötən sayında Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, MTN Akademiyasının keçmiş fakültə rəisi Taryel Əliyevin müsahibəsini dərc etmişdik. Ölkəmizdə və regionda baş verən siyasi proseslərin müzakirəsinə həsr olunan müsahibədə T.Əliyevin səsləndirdiyi “Azərbaycanın quru sərhədləri Gürcüstandan gələ biləcək təhlükəyə görə bağlıdır” fikri Borçalıda yaşayan bəzi soydaşlarımız tərəfindən etirazla qarşılanıb. Redaksiyamıza zəng vuran narazı şəxslər istər keçmişdə, istər də bu gün Borçalı üzərindən Azərbaycana qarşı heç bir təhlükənin mövcud olmadığını dilə gətirməklə yanaşı, müsahibizimi “azərbaycanlıları gözdən salmaqda” ittiham ediblər. Odur ki, məsələyə daha ətraflı aydınlıq gətirmək üçün yenidən Taryel Əliyevlə söhbətləşdik.

## Taryel Əliyev: “Bəzi hallarda narkotik ticarətinə qarşı mübarizəni aparan ayrı-ayrı vəzifəli şəxslərin özlərinin də həmin dövriyyənin içərisində olduğu barədə xəbərlər eşidirik...”



**“Əsas məsələ cərimələrin məbləği deyil, onu pozan şəxslərlə nə dərəcədə səmərəli mübarizə aparılmasıdır”**

Müsahibəni diqqətlə oxuyan heç bir şəxs belə bir fikir irəli sürə bilməz. Bu cür iddia irəli sürən şəxslər isə həmin müsahibədə qeyd etdiyimiz fikirləri bir daha təsdiq etmiş olurlar. Yəni onlar mənafelərinə xidmət etdikləri xarici dövlətin, konkret halda İran İslam Respublikasının onların qarşısına qoyduğu tapşırığı yerinə yetirməklə məşğuldurlar. Söhbət burda məhz Borçalıda yaşayan azərbaycanlıların Azərbaycan dövlətindən narazı salınmasından gedir. İran xüsusi xidmət orqanlarının bu dəsti-xətti hər kəsə məlumdur.

***- Taryel müəllim, qəzetimizin ötən sayında dərc olunan müsahibədə qeyd etdiyiniz bəzi fikirlər, xüsusilə də “Azərbaycanın quru sərhədləri Gürcüstandan gələ biləcək təhlükəyə görə bağlıdır” açıqlamanız xeyli müzakirələrə səbəb oldu. Hətta Borçalıda yaşayan bir neçə soydaşımız sizi “azərbaycanlıları gözdən salmaqda” ittiham edib. İlk olaraq bu ittihamlara reaksiyanızı bilmək istərdik...***

- Müsahibəni diqqətlə oxuyan heç bir şəxs belə bir fikir irəli sürə bilməz. Bu cür iddia irəli sürən şəxslər isə həmin müsahibədə qeyd etdiyimiz fikirləri bir daha təsdiq etmiş olurlar. Yəni onlar mənafelərinə xidmət etdikləri xarici dövlətin, konkret halda İran İslam Respublikasının onların qarşısına qoyduğu tapşırığı yerinə yetirməklə məşğuldurlar. Söhbət burda məhz Borçalıda yaşayan azərbaycanlıların Azərbaycan dövlətindən narazı salınmasından gedir. İran xüsusi xidmət orqanlarının bu dəsti-xətti hər kəsə məlumdur.

O ki qaldı ümumilikdə Gürcüstanda yaşayan 350 min nəfərə yaxın soydaşımıza, onların böyük əksəriyyəti Azərbaycan dövlətinə kifayət qədər sədaqətli, millətçi və vətənpərvər şəxslərdir. Bircə şeyi qürur hissi ilə qeyd etmək istəyirəm ki, mənim MTN İstintaq şöbəsində xidmət etdiyim dövrdə, 1990-cı illər və 2000-ci illərin əvvəllərində hakimiyyətin zorla ələ keçirilməsinə və dövlət hakimiyyəti nümayəndəsinə qarşı terror aktı törədilməsinə cəhd cinayətlərinə dair istintaqı aparılmış çoxsaylı işlər üzrə bir nəfər də olsun Gürcüstan əsilli azərbaycanlı cinayət məsuliyyətinə cəlb edilməmişdir. Yalnız bir nəfər azərbaycanlı Rusiya xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycana qarşı casusluq etdiyinə görə məsuliyyətə cəlb olunmuşdur. Yəni demək istəyirəm ki, qəzetinizin keçən nömrəsindəki müsahibədə bildirdiyim fikirlər Gürcüstan azərbaycanlılarının əleyhinə deyil, yalnız onların bəlli bir qisminə aiddir.

***- Hesab edirsiniz ki, sizin əleyhinizə fikir bildirən insanlar yenə də İran xüsusi xidmət orqanlarının tapşırığı ilə danışırlar...***

- Bayaq da qeyd etdiyim kimi, bu cür fikir bildirənlər əsasən müsahibəni səthi oxuyub, əsassız nəticəyə gələn şəxslər ola bilər. Digər şəxslərin isə sualda qoyduğunuz məqsədləri güddüyü şübhə doğurmur. Bununla yanaşı, onu da deyim ki, mən regionçuluqdan, qohumbazlıqdan, yerlipərəstlikdən kifayət qədər uzaq adamam. Məsələlərə də həmişə obyektiv yanaşmağın tərəfdarıyam. Keçən dəfə də bildirdiyim kimi, İran xüsusi xidmət orqanlarının ölkəmizdəki fəaliyyətinin qarşısı Azərbaycan hüquq mühafizə və xüsusi xidmət orqanları tərəfindən qətiyyətlə alınır. Mənim yadımdadır ki, son dövrlər Gürcüstanda baş verən proseslərə oxşar və yaxud eyni proseslər 1993-94-cü illərdə Azərbaycan Respublikasında da həyata keçirildi. Həmin dövrdəki iqtisadi çətindən çətin vəziyyətdən istifadə edən Azərbaycan İslam Partiyasının rəhbərliyində olan bir qrup şəxs Bakı və Sumqayıt əraisində məhz İrandan gələn “yardım kampaniyaları” ilə xeyli insanı özlərinə tərəf çəkmişdilər. Digər bir misal: Azərbaycanın rayonlarının birində bir ailənin 4 üzvü - ata, ana, oğul və gəlin İran xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb olunmuşdu. Bu və qeyd etməyi lazım bilmədiyim digər hadisələrin üstü vaxtında və peşəkarlıqla açılmış və təqsirkar şəxslər cinayət məsuliyyətinə cəlb edilmişdir.

Bir daha qeyd edirəm ki, Gürcüstandakı hazırkı vəziyyətin yaranması Azərbaycanın xaricdə yaşayan soydaşlarımızla məşğul olmalı olan qurumlarının və səlahiyyətli şəxslərin başdansovdu fəaliyyəti, habelə Gürcüstan hüquq mühafizə orqanlarının məsələyə laqeyd yanaşması səbəbindən mümkün olmuşdur.

***- Yeri gəlmişkən, bəzi siyasi şərhçilər sərhədlərin bağlı qalmasını həm də Şimali Qafqazdakı hadisələrlə əlaqələndirirlər. Amma siz keçən dəfə bu məsələyə toxunmadınız...***

- Şimali Qafqazda Azərbaycanın quru sərhədlərinin bağlı qalmasına səbəb olacaq hər hansı bir prosesin baş verdiyini zənn etmirəm. Düzdür, zaman-zaman bəzi dini təriqət üzvləri və kriminal şəxslər müəyyən gərginlik yaratmağa çalışırlar. Lakin hesab edirəm ki, nə Rusiya Federasiyası, nə də Azərbaycan dövləti həmin hadisələrin yüksək təhlükəyə çevrilməsinə imkan verməzlər. Bununla yanaşı, Şmali Qafqazda sərhədlərimizə çox yaxın ərazidə aparılmış Birinci və İkinci Çeçenistan müharibələri dövründə də quru sərhədlər bağlanılmamışdır. Baxmyaraq ki, hər iki müharibədə kifayət qədər ağır silahlar tətbiq olunur, terror aktları törədilirdi. Bu zaman az bir sayda çeçen öz torpağını tərk edərək, Azərbaycana və digər dövlətlərə sığınmışdı.

***- Sizin Gürcüstandakı seçkilərlə bağlı təxmininiz özünü doğrultdu. Belə ki, qeyd etdiyiniz kimi, hakim “Gürcü arzusu” partiyası qalib gəldi. Amma, təəssüf ki, sosial şəbəkələrdə yayılan bəzi görüntülər seçkinin heç də şəffaf keçirildiyini deməyə əsas vermir...***

- Bildiyiniz kimi, hakim “Gürcü arzusu” partiyası səslərin təxminən 54 faizini toplamışdır. Prinsipcə, bu, gözlənilən idi. Sosial şəbəkələrdə yayılan görüntülərə və fikirlərə gəldikdə isə, yəqin ki, bunlar hələ araşdırılacaq və hüquqi qiymət veriləcəkdir. Bizim Gürcüstanın rəsmi orqanlarının verdiyi məlumatları şübhə altına almağa haqqımız yoxdur. Gürcü xalqı öz seçimini etmişdir. Hesab etmirəm ki, baş vermiş qanun pozuntularına dair araşdırmaların nəticələri seçkinin ümumi nəticəsinə təsir göstərəcək.

***- Maraqlıdır ki, Gürcüstanda keçirilən parlament seçkiləri Azərbaycanda da böyük diqqətlə izlənilirdi. Hətta son günlər belə fikirlər də səsləndi ki, hakim partiyaya dəstək məqsədilə Azərbaycandan Gürcüstana müəyyən qruplar da göndərilib...***

- Həqiqətən də Gürcüstanda keçirilən parlament seçkilərinə cəmiyyətimizin xeyli maraq göstərdiyi hiss olunurdu. Mən hətta deyərdim ki, iki ay bundan qabaq Azərbaycan Milli Məclisinə keçirilən seçkilərə bu qədər maraq hiss eləməmişdim. Bu, böyük ölçüdə ona bağlıdır ki, Azərbaycanda kifayət qədər güclü hakimiyyət mövcuddur və seçkilərin nəticələri aşağı-yuxarı bəlli idi. Lakin Gürcüstan parlamentinə seçki ərəfəsində iş hətta o yerə gəlib çatmışdı ki, bizim şou proqramların aparıcıları belə, Gürcüstan xalqını sabitliyə səs verməyə dəvət edirdilər. Bizdə o sabitlik təmin olunub və illərdir mövcuddur. Nəticələrdən göründüyü kimi, Gürcüstan xalqı da sabitliyi seçdi.

Sualın digər hissəsinə gəldikdə isə, Azərbaycandan Gürcüstana nəinki hakim partiyaya, həm də müxalifətə dəstək olmaq üçün müəyyən qədər şəxslər getmişdi. Mən özüm sentyabr ayında şəxsi işlərimlə əlaqədar Gürcüstanda olmuşam. Bizim Faxralı kəndində əsasən müxalifətə dəstək olmaq üçün bir-neçə adamın gəldiyinin şahidiyəm. Düzdür, onların motivləri bir qədər fərqli idi. Bununla yanaşı, istər iqtidara, istər də müxalifətə dəstək üçün Gürcüstana getmiş, yaxud göndərilmiş şəxslərin proseslərə hər hansı ciddi təsirinin olduğunu zənn etmirəm.

***- Bu arada, Gürcüstanda***

# xfi əməkdaşlığa cəlb olunmuşdu...”

## “Gürcüstanda keçirilən parlament seçkilərinə cəmiyyətimizin xeyli maraq göstərdiyi hiss olunurdu. Mən hətta deyərdim ki, iki ay bundan qabaq Azərbaycan Milli Məclisinə keçirilən seçkilərə bu qədər maraq hiss eləməmişdim”

***seçkinin nəticəsi ilə barışmayan müxalif qüvvələr fasiləsiz etiraz aksiyasına qərar verdi. Siz proseslərin gedişini necə görürsünüz?***

- Düzü, mən bu aksiyaların hər hansı nəticəyə gətirib çıxaracağını gözləmirəm.

***- Belə bir vəziyyətdə Gürcüstanı nə gözləyir? Sizcə, Avropa ilə diplomatik əlaqələr, o cümlədən vizasız rejim ləğv oluna bilərmi?***

- Keçən dəfə qeyd etdiyimiz kimi, “Gürcü arzusu” hakimiyyətə gəldikdən sonra Gürcüstanın Avropa İttifaqı qarşısında götürdüyü öhdəliklərdən yavaş-yavaş uzaqlaşmağa başladı. Həmin tendensiyanın davam edəcəyini gözləyirəm. Prosesin Gürcüstan vətəndaşlarının Avropaya vizasız gedişlərinin ləğvinə çatacağı zamana bağlı məsələdir.

***- Doğrusu, Gürcüstandakı siyasi proseslərlə bağlı cavablandırılası daha bir neçə sualımız var, amma belə görürük ki, siyasi məsələlərə münasibət bildirməyə meylli deyilsiniz...***

- Mən keçən dəfə də qeyd etdim ki, Azərbaycanın daxilində cəmiyyəti kifayət qədər maraqlandıran, narahat edən sosial-hüquqi məqamlar var. Məncə, biz daha çox özümüzdən danışsaq yaxşıdır.

***- Yeri gəlmişkən, son vaxtlar inzibati cərimələrin artırılması ilə bağlı cəmiyyətdə böyük narazılıqlar var...***

- Cəmiyyətdə baş verən ictimai münasibətlərin böyük bir qismi dövlət tərəfindən müəyyən edilən qaydalarla nizama salınır. Təbii ki, bu qaydaların pozulmasına görə müvafiq cəzalar da nəzərdə tutulur. Bu müsahibədə cəzanın fəlsəfəsi ilə bağlı dərin təhlillərə dalmaq istəməzdim. Qaydalar müəyyən olunub və hər kəs bu qaydalara əməl etməlidir. Şübhəsiz ki, qaydalara əməl etməyən şəxslər də müvafiq qaydada cəzalandırılmalıdır.

Bəli, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərdə cərimələrin hədsiz dərəcədə artırılması son dövrlər cəmiyyətdə xeyli söz-söhbətə səbəb olmuşdur. Bəzən bu cərimələrin artırılmasından populizm məqsədləri ilə də istifadə olunur, cərimələrin məbləğinin əhalinin gəlirlərinə uyğun olmaması barədə danışılır. Lakin əsas məsələ cərimələrin məbləği deyil, onu pozan şəxslərlə nə dərəcədə səmərəli mübarizə aparılmasıdır. Azərbaycandakı vəziyyət isə onu göstərir ki, hansısa bir vəzifəli şəxs şifahi, yaxud yazılı qaydada qanunun hansısa müddəasının müvəqqəti və ya daimi tətbiq edilməməsi barədə göstəriş verir. Məsələn, piyadaların yol hərəkəti qaydalarını pozması ilə bağlı qanunvericilikdə müvafiq cərimələr nəzərdə tutulmuşdur. Bir neçə il bundan qabaq birdənbirə həmin normanın böyük bir həvəslə tətbiq edilməyə başladığının şahidi olduq. Lakin bu, qısamüddətli və kampaniya xarakterli oldu. Hazırda yol hərəkəti qaydalarını pozan piyadalara qarşı hər hansı bir hüquqi tədbir tətbiq edildiyini görmürük. Bu, tam bir hüquqi nihilizmdir. Şəxs hamının gözü qarşısında yolu piyada üçün nəzərdə tutulmamış yerdən keçir, lakin heç bir tədbir görülmür. Özlüyündə bu, piyadaların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin artmasına səbəb olur. Bunu DİN-in statistikasına baxsaq, aydın görərik.

> “Qürur hissi ilə qeyd etmək istəyirəm ki, mənim MTN İstintaq şöbəsində xidmət etdiyim dövrdə, 1990-cı illər və 2000-ci illərin əvvəllərində hakimiyyətin zorla ələ keçirilməsinə və dövlət hakimiyyəti nümayəndəsinə qarşı terror aktı törədilməsinə cəhd cinayətlərinə dair istintaqı aparılmış çoxsaylı işlər üzrə bir nəfər də olsun Gürcüstan əsilli azərbaycanlı cinayət məsuliyyətinə cəlb edilməmişdir”

Yenə bir neçə il bundan qabaq Dövlət Yol Polisi əməkdaşlarına verilən qanunsuz göstərişin şahidi olmuşam. Həmin göstərişdə qanunda nəzərdə tutulmuş inzibati xətaya görə sürücülərin cəzalandırılmaması tələb olunurdu. Söhbət plyonka və pərdələrdən gedirdi. Yəni qaydalar və cərimələr müəyyən olunub, lakin nə həmin qaydalara əməl etməli, nə də onu tətbiq etməli olan şəxslər buna əməl etmirlər. Deməli, burada əsas məsələ, dediyim kimi, cərimənin müəyyən olunması, yaxud onun məbləği deyil, həmin qaydalara əməl olunmasına nəzarət edən orqanların işinin səmərəliliyi ilə ölçülür.

Digər əsas və vacib məsələ odur ki, cərimə hüquq pozuntusuna görə müəyyən olunur, qısası, qaydanı pozma və cərimə olunma.

***- Hesab edirsiniz ki, cərimələri artırmaqla hansısa problemi həll etmək mümkündür?***

- Mən qətiyyən belə fikirdə deyiləm. Açığı, bu dəyişikliklərin də normal tətbiq olunacağına ümidim yoxdur. Hətta biraz dərinə getsək, misal üçün, “balkon”da siqaret çəkib kötüyünü yerə atanların aşkar olunmasının mexanizmi belə, yoxdur. Kimsə görüb məlumat versə belə, sübut edilməsi mümkün kimi görünmür. Sözsüz ki, bu məsələdə ictimai qınaq, maarifləndirmə, təbliğat kimi amillərə üstünlük verilməlidir. Lakin şəxsən mənim təcrübəm göstərir ki, maarifləndirmə ilə də küçəni zibilləyənlərin qarşısını almağa nail olmaq xeyli müşkül məsələdir. Mən yaşadığım binanın girişini zibilləyən, siqaret kötüyünü atan, yaxud küçəni zibilləyən şəxslərlə o maarifləndirici söhbəti mütəmadi apardım. Demək olar ki, indiyədək müsbət nəticə əldə edildiyini deyə bilmərəm. Yaxud, işğaldan azad edilmiş ərazilərimizdə zibil toplanılması faktları barədə mətbuatda xeyli məlumat getmişdi. Belə bir vəziyyətdə, sözsüz ki, cərimələrin düzgün tətbiqinə ehtiyac yaranır.

***- Bu gün cəmiyyətimizi düşündürən əsas problemlərdən biri, bəlkə də birincisi ölkədə narkomaniyanın və narkoticarətin sürətlə yayılmasıdır. Bir hüquqşünas kimi sizin fikrinizi bilmək istərdik, narkotik alverçiləri ilə bağlı qanunların sərtləşdirilməsi bu problemin həllinə gətirib çıxara bilərmi?***

- Bayaq da qeyd etdiyim kimi, hüquq pozuntuları ilə mübarizədə əsas məsələ cəzaların sərtliyi deyil, onların düzgün tətbiq olunmasıdır. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan dövlət orqanlarının əməyini yüksək qiymətləndirirəm. Bununla yanaşı, bəzi hallarda bu mübarizəni aparan ayrı-ayrı vəzifəli şəxslərin özlərinin də həmin dövriyyənin içərisində olduğu barədə xəbərlər eşidirik. Eyni zamanda, bəzi hallarda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə yalnız statistik hesabatlardakı rəqəmləri göstərmək hesabına, səthi aparılır. Öz növbəsində, bu hallar narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə ümumi vəziyyətə mənfi təsir göstərir.

***- Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının məlumatına görə, Azərbaycana daxil olan narkotiklərin ən yaxşı halda 16 faizi aşkar olunur. Bu isə o deməkdir ki, ölkəmizə gətirilən narkotik vasitələrin böyük hissəsi sərbəst şəkildə öz alıcısına çatır. Sizcə, bunun qarşısını almaq niyə mümkün olmur?***

- Narkotiklərin qanunsuz dövriyyəsi latentliyi olduqca yüksək olan cinayətdir. Bu halda istər alıcı, istər də satıcı tərəfindən hüquq mühafizə orqanlarına cinayətin baş verməsi barədə məlumat verilməsi halları demək olar ki, mövcud deyildir. Necə deyərlər, alan məmnun, satan məmnun. Bu cür cinayətlərin üstünün açılması da yalnız hüquq mühafizə orqanlarının həyata keçirdiyi əməliyyat axtarış və istintaq tədbirləri nəticəsində mümkün olur. Şübhəsiz ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin də tək hüquq mühafizə orqanlarının üzərinə atılması cinayət faklarının açılma faizinin aşağı olmasına gətirib çıxara bilər. Narkotiklər böyük bəladır, onunla mübarizə hamının - dövlətin, cəmiyyətin, məktəbin, ailənin əlaqəli və birlikdə kompleks fəaliyyəti nəticəsində mümkündür.

***- Gəlin, daxildə aparılan mübarizədən öncə narkotik vasitələrin ölkəmizə necə, hansı yollarla gətirilməsi haqda düşünək. Çünki narkotik nə qədər alçatmaz olarsa, bir o qədər istifadəçisi də az olar...***

- Ümumiyyətlə, narkotik aludəçiliyinə düçar olmuş şəxsi onun qiyməti artıq maraqlandırmır. Bizim qonşuda bir narkoman olduğunu eşitmişdim. Deyirdilər ki, narkotik vasitə əldə etmək üçün nəinki evin bütün əşyalarını, nətta döşəmənin taxtalarını da söküb satmışdı. Bununla yanaşı, ucuz və ya bahalı narkotik vasitələr mövcuddur. Necə deyərlər, hər kəs ayağını öz yorğanına görə uzadır. Daha ucuz və daha tez təsir göstərən sintetik narkotik vasitələr vardır ki, onlar aludə olmuş şəxsin daha tez məhv olmasına gətirib çıxarır.

Narkotik vasitələrin necə gəlməsi ilə bağlı demək istəyirəm ki, heç kimə sirr deyil, narkotik vasitələr əsasən qaçaqmalçılıq yolu ilə ölkəmizə daxil olur. Tibbi məqsədlər üçün istifadə olunan narkotik tərkibli dərman preparatları ciddi nəzarət altındadır. Qaçaqmalçılıq yolu ilə ölkəmizə daxil olan narkotik vasitələrin böyük əksəriyyəti cənub qonşumuzla sərhəddən keçirilir. Azərbaycan gəncliyini narkotiklərə aludə etdirərək, gələcəkdə öz məqsədləri üçün istifadə etmək taktikası qonşumuzun ölkəmizə qarşı fəaliyyətinin tərkib hissəsidir.

**Söhbətləşdi:**
**Anar HƏSƏNLİ**



Bəxtiyar ƏLİYEV

# Gürcüstanda Azərbaycansayağı seçki

## Və yaxud bizim hökumətin "Gürcü arzusu"nun qələbəsinə sevinməsi nə ilə bağlıdır?

**Oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkiləri təbii olaraq region ölkələrinin diqqət mərkəzində idi. Çünki burda söhbət yalnız gürcü xalqının seçimindən, yaxud müxalif güclərlə hakim "Gürcü arzusu" partiyası arasındakı mübarizədən getmirdi. Bu, Avropa ilə Rusiya arasındakı nüfuz savaşından kimin qalib çıxacağını müəyyən etmək üçün əhəmiyyətli bir siyasi proses idi.**

Bəlli olduğu kimi, bu dəfə də Putin Rusiyası Gürcüstanda qalib gəldi. Artıq bundan sonra ölkə daxilində baş verəcək proseslər Gürcüstanın daxili işidir, digər qonşu dövlətlər kimi, Azərbaycan üçün də az əhəmiyyət kəsb edəcək. O halda Gürcüstanda keçirilən seçki bizim üçün niyə bu qədər əhəmiyyətli idi?

Əlbəttə, ilk baxışdan belə düşünmək olar ki, Gürcüstanda 500 min nəfərə yaxın soydaşımız yaşadığından, Azərbaycan hakimiyyətinin bu ölkədəki seçkilərə maraq göstərməsi normaldır. Lakin təcrübə onu göstərir ki, bu cür düşüncə bizim hakimiyyətə yaddır. Yəni heç də inandırıcı deyil ki, öz vətəndaşlarını rəzil günə salan Azərbaycan hakimiyyəti məhz Borçalıda yaşayan soydaşlarımızın daha yaxşı yaşaması naminə buradakı seçkilərə maraq göstərib.

Üstəlik, yalnız maraqdan da söhbət getmir. Bəzi məlumatlara görə, Borçalıda hakim partiyanın xeyrinə təbliğat aparmaq üçün Gürcüstana öncədən xüsusi qruplar da göndərilib. Bunların böyük əksəriyyəti isə, əsasən, Gürcüstan əsilli vətəndaşlarımız olub.

Şübhəsiz, Azərbaycan hakimiyyətinin Gürcüstandakı seçkilərə "Gürcü arzusu" qədər həyəcanla yanaşması, günlərdir əndişə içində olması heç də soydaşlarımızı düşünməkdən irəli gəlmirdi. Hər zaman olduğu kimi, bu məsələdə də iqtidar başbilənləri yenə öz maraqlarını güdürdülər. Çünki, onlar yaxşı bilirdilər ki, Gürcüstanda Rusiya deyil, Avropa "qalib gəlsə", yəni Qərbmeylli komanda hakimiyyət başına keçsə, tezliklə dəyişiklik növbəsi Azərbaycana çatacaq. Bu baxımdan, nəinki siyasi rəhbərlik, iş adamları, jurnalistlər, hətta şou-biznes nümayəndələri belə, aktiv şəkildə Gürcüstandakı seçki prosesinə cəlb olunmuşdular.

Bütün bunlarla yanaşı, bizim "seçki texnoloqlarımız" da burada aktiv rol almışdı. Seçkidə Məzahir Pənahovun "dəsti-xətti" aşkar şəkildə hiss olunurdu. Elə seçkilərin Azərbaycansayağı keçirilməsi də bunun bariz nümunəsi hesab oluna bilər. Fikir verin, eynilə bizim ölkəmizdə olduğu kimi, hər kəsin, hətta kameraların gözü önündə azərbaycanlı namizəd qutuya topa-topa bülletenlər atır, üstəlik, "doldurun" deyə yanındakıları da saxtakarlığa təşviq edir... Sizcə, bu, bizə tanış mənzərə deyilmi? Başqa hansı ölkədə belə rəzilliyə rast gəlmək mümkündür?!

Ən maraqlısı isə odur ki, bizim hökumətyönlü media Gürcüstanda Rusiyameylli hakimiyyətin qələbə qazanmasını az qala "Azərbaycanın qələbəsi" kimi təqdim edir. Axı, Gürcüstanda Rusiya "qalib gəldisə", bu, bizim xalqa nə qazandıracaq?! Yoxsa, iqtidarımız Qərbə inteqrasiya xəttindən imtina edib, yenidən Rusiyanın "qucağına" qayıtmağa qərar verib?!

# Cərimə batalyonları




## Biri vardı, ikisi yoxdu...

**Çox-çox qədimlərdə dünyanın gözəl guşələrinin birində idbar bir məmləkət vardı... Və bu məmləkətin başıqapazlı əhalisi qaçıb cəhənnəmə getməyi ən böyük xoşbəxtlik sayırdı...**

Onlar öz aralarında məmləkətlərini "Cərməstan" adlandırırdı... haqlıydılar da!..

Amma elə zənn eləməyin ki, külli-əhali təkcə cərimələrə görə baş götürüb qaçmaq istəyirdı. Yox.

Əslində, təhlükə daha böyük idi. Yəni ölkənin hörmətli-izzətli, əlahəzrət Şahən Şahı öz rəiyyət ilə məzələnməyi yaman xoşlayırdı. Hətta bu məqsədlə hər yerdə və hər işdə şəxsən ona dördayaqlı sadiqliy nümayiş etdirənlərdən çoxlu sayda cərimə batalyonları da yaratmışdı. Əslində, Şahən Şaha bəlliydi ki, o, məhz belə batanyonların sayəsində uzun müddət öz taxtı-tacında şellənib otura bilir.

Məsələn, qayda-qanun və əminamanlığa nəzarət edən "Fərraş cəza batalyonu" (FCB) şahın şəxsi fərmayişinə görə, ölkədə başıpapaqlılara qənim kəsilməliydi. Kəsilirdi də! Papaq dalınca gedəndə, papaqla birgə başı da kəsib gətirirdilər. Və bu şücaətlərinə görə qiymətli bəxşeyiş və ənamlar da alırdılar. Ədalət naminə deməliyəm ki, başıpapaqsız kişilərlə, daha doğrusu, kişifasonlarla (lap dəqiqi isə - arvadfasonlarla) işləri olmazdı. Ara-sıra olsaydı da, uzaqbaşı, o "fasonların" bəzilərinin başına yaylığmaylığ bağlayıb, bir-birini qıdıqlayardılar... Camaata torba tikmək, xox gəlib xof yaratmaq və kimlərəsə şər-böhtan atıb zindana salmaq... su içmək qədər asan olmuşdu. Belə-belə işləri seyr eləyən Şah həzrətləri də dodaqaltı qımışardı... "Əlbəttə, it yiyəsini tanımayan bir məmləkəti idarə eləməkdən məzəli nə ola biər ki?"

Əlqərəz, cidanı çuvalda gizlətmək mümkün olmadığı kimi, məmləkətdə başıpapaqlıların sayı və keyfiyyətinin günbəgün, aybaay seyrəldiyini də ört-basdır eləmək mümkün deyildi. "Amma yel qayadan nə aparasıdı ki?.."

Daha sonra, "Təbibxana nəzarət-cərimə" (TNCB) batalyonu qurub-quraşdırmışdılar. Bu batalyonun əsas işi-gücü nəzarətdən çox, nəzarətin astar üzünü qurdalamaqdan ibarət idi... Yəni onlar böyük bir canfəşanlıq və coşquyla Təbib-Xanaları (burada adının çəkilməsi ayıb sayılan) digər pis-pis "Xanalara" çevirməyi, şahın xəzinəsini (eləcə də öz ciblərini) doldurmağı şərəf sayırdılar. Can sağlığından savayı nəynən desən məşğul idilər, - təki pul qazansınlar, təki var-dövlət sahibi olsunlar. Təbibxananın hər yerə səpələnmiş pullu azarxana şöbələrində də qızğın işlər gedirdi: azarxana şöbələrində nəfsqulu loğmanlar xəstələrə şəfa vermək əvəzinə, onları soğan kimi soyub-doğrayır, axırda da ləzzət ala-ala cəhənnəmə vasil edirdilər; yəni, "cəhənnəm istəyidiniz? - bu da sizə cəhənnəm!" Beləliklə, xəstəliklərin sağalmaması ucbatından, xəstələrin sayı həndəsi silsiləylə artmaqdaydı...

> Daha sonra, "Təbibxana nəzarət-cərimə" (TNCB) batalyonu qurub-quraşdırmışdılar. Bu batalyonun əsas işi-gücü nəzarətdən çox, nəzarətin astar üzünü qurdalamaqdan ibarət idi... Yəni onlar böyük bir canfəşanlıq və coşquyla TəbibXanaları (burada adının çəkilməsi ayıb sayılan) digər pis-pis "Xanalara" çevirməyi, şahın xəzinəsini (eləcə də öz ciblərini) doldurmağı şərəf sayırdılar...

Şahən Şah isə, öz növbəsində, bu vəziyyətdən məmnun olur, hətta bəzən qəhqəhə çəkib uğunurdu da...

Elm-təhsil sahəsində də misli görünməmiş "nailiyyətlər" əldə edilirdi. Bu taleyüklü məsələ "Elmə nəzarət-cəza" batalyonuna (ENCB) həvalə edilmişdi. İlk baxışda əcaib görünsə də, bu batalyon üzvlərini, istisnasız olaraq taxtabaşlardan seçmişdilər. Və bu taxtabaşların əsas vəzifəsi, məqsədi, nəyin bahasına olursa-olsun, tarixi həqiqətləri, o cümlədən həqiqətlərin tarixini qatıbqarışdırlb saxtalaşdırmaq və məmləkət əhlinin oxuyub adam olmaq arzularını puça çıxarmaq idi.

Bəlkə elə bu səbəbdən idi ki, cəhənnəm əzabını daha cazibədar hesab edən istedadlı, savadlı, bilikli elm-təhsil işçiləri məmləkətin sərhəd qapıları ağzında uzun-uzadı növbələr yaratmışdılar...

Bir də vardı, - QQB. Yəni "Hər şeyin qiymətini qaldıranşiklər batalyonu". Və bu qaldıranşiklərin əsas funksiyası qiyməti artan hər şeyə - gündəlik tələbat və istehlak mallarına, nöyütə-benzinə, işığa-qazasuya və sairəyə zəhərli əqrəb yapışdırmaq idi. Nə alırsansa al, - əqrəbin zəhərli neştərinə tuş gəlməlisən...yəni qiymətlər mütləq səni sancacaq...

Əqrəbin quyruğundakı neştərin həyat üçün çox təhlükəli olduğunu bilməyən varmı?.. Neştər sancdısa, vsyo, - cəhənnəmə pulsuz biletin hazırdı!..

Əslinə qalsa, qibleyi-aləm Şahən Şah həzrətləri bütün bu işlərə fitva verməklə, öz rəiyyətinə yaxşılıq eləmək niyyəti güdürdü. Yəni cəhənnəm həsrətiylə yaşayanları və bu məqsədlə qaçıb ölkədən getmək istəyənləri ora pulsuz-parasız, havayı göndərirdi...

Əlbəttə, bir çoxları sərhəd qapılarının kilidli olduğu səbəbindən məmləkəti tərk eləyə bilmirdi. Qibleyi-aləm belə vəziyyətə düşənlər üçün də əlac tapmışdı: özünün şəxsi nəzarətində olan uçan xalça-palazları, dünyanın dörd bir yanına uçururdular. Buradan xoşun gəlmir, min, hayana istəyirsən - "davay, dasvidaniya!" get! Düzdür, bu xalça-palazlara minib uçmaq çooox baha idi; amma əqrəb neştərindən, başlarının papaqla birgə tərsinə kəsilməsindən, gün-güzaranlarının göy əskiyə bükülməsindən, azarxanalarda min bir ağrı və əzabla ölməkdənsə... çooox bahalı xalça-palazlara minib birdəfəlik cəhənnəmə vasil olmaq daha yaxşı deyildimi?..

Nəysə, mətləbdən uzaqlaşmayaq... Qısası, Uca Yaradanın özünün belə unutduğu bu məmləkətdə dirilər ölülərə qibtə edirdilər... Başqa çarə də yox idi... Yerdə qapılar qapalı, göy üzü çox bahalı!..

Bəli, Şah həzrətləri ölkənin qapılarını qıfıllasa da, damını-bacasını, yəni Göyünü açıq qoymuşdu... Hərçənd, o göydə dünyadan bixəbər səfeh quşlarla yanaşı, uçan xalça-palazlar və uçulmamış dam-daş qoymayan qanadlı dəvə-cəza batalyonları da vardı...

Allahdan savayı heç kim bilmirdi ki, bu məmləkətin axırı necə olacaq və bu gedişlə hara gedib düşəcək!..

Bəlli olan oydu ki, hər hansı bir qövm, yaxud etnos, eynən insan kimidi, - o da doğulur, körpə olur, uşaqlıq, gənclik, yeniyetməlik həyatına qədəm qoyur, sonra böyüyür yetkin insan ömrü sürür, daha sonra yaşa dolur, qocalır, xəstələnir...və nəhayət həyatının məntiqi sonluğuna - öz ölümünə qovuşur... Kim bilir, bəlkə külli-əhlinin "Cərimərstan" adlandırdığı məmləkət də ömrünün son çağını, mövcudluğunun son mərhələsini yaşayırdı...

**Eldəniz QULİYEV**

**P.S. Allahım, yıxılmağa qanad ver mənə...**

Azərbaycanda narkomanların sayı günbəgün artır. Respublika Narkoloji Mərkəzindən verilən məlumata görə, təkcə 2024-cü ilin iyun ayında müalicə üçün narkoloji dispanserlərə müraciət edən və ölkəmizdə qeydiyyatda olan narkomanların sayı 39 175 nəfər olub. Onlardan 38 258-i kişi, 917 nəfəri isə qadındır. Nəzərə alsaq ki, müalicəyə üz tutan narkomanların sayı təxminən onların ümumi sayının yeddidə birini təşkil edir, deməli, rəsmi olaraq 39 175 nəfər olan narkomanların qeyri-rəsmi sayı 274 225 nəfər təşkil edir. Bu baxımdan, bəzi narkoekspertlərin ölkəmizdə 280-300 min nəfər narkotik istifadəçisinin olduğunu iddia etməsi kifayət qədər anlaşılandır.



“O vaxt bu sualı versəydin, deyəcəkdim ki, hamı məni atdı...”



# “Bu gün qürurla deyirəm ki, artıq 16 aydır ayığam...”

## Planetin ən gənc boks mütəxəssisi Cavid Tağıyev: “Alkoqol istifadə edən insan keçmişlə, narkotik istifadə edən gələcəklə danışır”

Digər tərəfdən, təkcə son 2-3 il ərzində ölkəmizdə 150-yə yaxın özəl reabilitasiya mərkəzinin fəaliyyət göstərməsi də onu deməyə əsas verir ki, bu sahədə vəziyyət heç də ürəkaçan deyil. Şübhəsiz, bu mərkəzlərin hər biri zərurətdən meydana gəlib. Deməli, ölkəmizdə özəl reabilitasiya mərkəzlərinin



fəaliyyətinə ehtiyac var ki, onların sayı daha da artmaqdadır. Əlbəttə, həmin mərkəzlər arasında bu işə sadəcə qazanc mənbəyi kimi yanaşanlar, qeyri-peşəkar fəaliyyət göstərənlər də var. Lakin apardığımız müşahidələrə əsasən deyə bilərik ki, əksəriyyəti ciddi nəticə ortaya qoymaqdadır. Müsahibimiz həmin mərkəzlərdən birinin - ”Start” Reabilitasiya Mərkəzinin rəhbəri, Əməkdar idman ustası Cavid Tağıyevdir.

***- Cavid müəllim, ilk olaraq oxucularımıza özünüz haqda məlumat vermənizi xahiş edərdik...***

- Tağıyev Cavid İbrahim oğlu. 1980-ci il oktyabrın 6-da Lənkəran rayonunun Liman şəhərində anadan olmuşam. 1987-ci ildə Liman şəhərində, keçmiş adıyla Portiliç, indiki adıyla Liman orta məktəbinə getmişəm. 1997-ci ildə yeniyetmələr içində Avropa Çempionu, 2004-cü ilin Yay Oyunları Olimpiadasının beşincisi, Avropa üçüncüsü, Avropa ikincisi, Dünya Çempioanatının bürünc mükafatçısı, Avropa Oyunlarının birincisi olmuşam. “Əməkdar idman ustası” fəxri adı almışam.

2006-cı il dekabrın 26-da Ali Baş Komandanımız cənab İlham Əliyevin əlindən mənzil almışam. Yəni mənzillə təmin olunmuşam.

İdmanı bitirəndən sonra məşqçilik fəaliyyətim olub. Məşqçilik dönəmində də, 2014-cü ildə Qazaxıstan Boks Akademiyasında “Ulduz məşqçi” adını almışam. Planetin ən cavan, gənc boks mütəxəssisi olmuşam. Ölkəmizin boks üzrə ilk mütəxəssisi mən olmuşam ki, xarici ölkədə baş məşqçi işləmişəm, gözəl Azərbaycanımızı təmsil etmişəm.

***- İdman sahəsində bu qədər nailiyyətləriniz olduğu halda, sizi nə vadar edirdi ki, narkomaniyaya meyl etdiniz?***

- Narkomaniyaya meyl etmək deməzdim. Bu, bizdə asılılıqdır. Mən 2014 -cü ildə narkomaniyaya necə meyl etmişəm?.. Birinci o haqda oxucularımıza nəql edim. Lap əvvələ gedək. İdmanda olduğumuz vaxtlar 10 gün, 15 gün dincəlmək olurdu. O dincəlmələr vaxtı da biz pivədən, müxtəlif içkilərdən istifadə edirdik ki, bir az rahat olaq, sakit olaq. Yəni belə bir şeylərdən istifadə edirdik. Amma asılılığımız birinci siqaretdən, içkidən başlayıb: “İç heç nə olmaz, kişi içər”. Bu minvalla da 2014 -cü ildə ilk dəfə narkotikdən istifadə etdim. Özü də ağır narkotikdən.

“Baku Face” klubununun, Respublika Olimpik İdman litseyinin baş məşqçisi oldum, Qəbələ Olimpiya İdman Kompleksinə direktor təyin etdilər, işləyə bilmədim. Lənkəran rayon Uşaq İdman Məktəbinin direktor vəzifəsində oldum. İşlərim yaxşı getmirdi. Yəni gizlin edirdim. O da gizli bir şey deyil.

Ondan sonra iki il yeddi ay İraq yığma komandasının baş məşqçisi oldum. Bilirsiniz, həmin dönəmlərdə biz neyləyirdik? Biz narkotiki buraxdıqda içkiyə meyl salırıq. Proqramı bilmədən çoxu elə düşünür ki, biz narkotiki atmışıq. Amma atmamışıq. Ta o günə kimi, gəlib proqramla, mərkəzlə tanış olandan sonra, artıq qəbullanırsan ki, sən bundan necə azad olmağın yolunu görürsən. Onu görəndən sonra artıq narkotik, içki, oyunlar və s. bunlar sənin beynindən, hafizəndən, həyatından silinib gedir. Hətta keçmişin sənə gülməli gəlir. Keçmişi fikirləşəndə gülürsən ki, bu nə idi? İlahi, bu nə bəla idi, mən düşmüşdüm?! Yəni idarə olunmazlıqdaydım.

Siz təsəvvür edin ki, hal-hazırda dünyada narkotikdən, alkoqolizmdən və iqromaniyadan əziyyət çəkən təkcə qeydiyyatda olan 152 milyon insan var. Bu cəmiyyətin 74 faizi ya tək uşaqlardır, ya da yaxşı insanlardır, istər xanımlar, istər də bəylər olsun. Bunlar hər zaman qayğı görmüş insanlardır, birdən ana ölür, ata ölür, o qayğını görmürlər. Ona görə də emosiaları, hissləri darmadağın olur. Hissləri darmadağın olandan sonra fikirləşirlər ki, o hisslərin yerini doldurmaq üçün nə edə bilərik? Bu səbəbdən də kimi içkiyə, kimi narkotikə qurşanır. Kimi də oyunlara maraq göstərir ki, bu boşluğu doldursun. Amma o da illuziyalardır.

***- Belə də fikir var ki, narkomanların çoxu həzz üçün bu yola qədəm qoyurlar...***

- Çünki emosiaları boşdur, o həzzi axtarırlar ki, hər şey yadlarından çıxsın. İstifadə zamanı da illuziyalarla yaşayırlar ki, gələcəkləri



yaxşı olacaq. Həyatlarında müəyyən boşluq olur ki, onlar bu həzzlə həmin boşluğu doldurmaq istəyirlər. Ümumiyyətlə, alkoqol istifadə edən insan keçmişlə, narkotik istifadə edən gələcəklə danışır. Amma bizdə proqram deyir ki, burda da indi ol. Ona görə də burda da indi olmaq lazımdır. Bu gün necəsən, o cür də olmalısan. İnsanın ilk növbədə çevrəsi, mühiti yaxşı olmalıdır.

***- Sizin çevrəniz, mühitiniz necə idi? Narkotik istifadəçisi olmanıza bu mühitin, çevrənin təsiri oldu?***

- Belə bir söz söyləyim, heç kimsəni heç nəyə məcbur etmirlər, bu yalan sözdür. Mən istərdim ki, bizim oxucularımız bunu diqqətlə oxusunlar. Ay çevrəm belə elədi, qohumlar belə elədig Əsla! Xeyr, belə bir şey yoxdur. Səndə asılılıq olur. Hisslərin param-parçadır, sən rahatlıq, komfort axtarırsan. Evdə nə deyibsən o olub, təkəbbürlük qalxıb səndə: “Mənəm, mənəm, mənəmg”. Heç bir şeydən həzz ala bilmirsən. Narkotikin də dadına baxandan sonra sən artıq sən deyilsən. Artıq bütün o dolmuş yerləri narkotiklə, alkoqolizmlə, iqromaniya ilə doldura bilirsən. Yəni heç bir zaman “məni qrupum pozdu, adamlar pozdu”, - deyə kimsəni günahlandırmaq lazım deyil.

***- Siz narkotikin ən çox hansı növündən istifadə etməyə başladınız?***

- Bütün növündən. Birinci yüngüldən başlayırsan. El dilində deyək, “nəşə”dən. Dostlarla, tanışlarla bir tüstü “nəşə” vurmağa başlayırsan. Aa, yaxşıdır, eyforiya qalxır. Sonra “nəşə” tap bilmirsən. Bir gün ağrıdan “kokos” çəkirsən, “patı”, “şüşə” deyirlər - metamfetamin, ən ağır narkotikdir, ondan istifadə edirsən. Belə-belə bir də görürsən ki, sən bu bataqlığın içindəsən. Bir də ayılıb görürsən ki, narkomaniya səni də öz căngino, ağuşuna alıb. Yəni sən bir gündə narkoman olmursan. İllərlə gizlədirsən. İllərlə işlədiyin yerlərdə bildirmirsən. Amma dağıdıcı davranışlar edirsən. Artıq gəlib çıxırsan o yerə, təslim olursan ki, mən bunun qabağında gücsüzəm, acizəm. O zaman da mütləq mərkəzə gəlmək lazımdır. Bunun başqa çarəsi yoxdur.

***- Narkotik aludəçisi olmağınıza ailənizin münasibəti necə oldu?***

*(Ardı var)*

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# “Qadın aşırı dərəcədə azad olmaq istəyirsə...”

## Sosioloq Mail Yaqub: “Bu, feministlərin 20-ci əsrdə dünyaya ərmağan etdikləri biabırçılıqdır”

**Azərbaycanda ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər çalışmasında dövlətimizin rolunu danmaq olmaz. Dövlətimiz tərəfindən qadınların hüquqları müdafiə edilir, qorunur və dəstəklənir. Məsələn, qadınların kişilərlə bərabər çalışması üçün dövlət tərəfindən bütün imkanlar yaradılıb. Məhz bu səbəbdəndir ki, günümüzdə qadınların rolu günbəgün artmaqdadır.**

Xüsusilə, müstəqilliyimizin bərpasından sonra qadınların öz istedad və bacarıqlarını göstərməsi üçün geniş imkanlar yaradıldı. Təsadüfi deyil ki, hazırda təkcə daxildə deyil, ölkəmizi xaricdə təmsil edən qadınlarımız da öz səlahiyyətlərinin öhdəsindən layiqincə gəlirlər. O cümlədən, idman yarışlarında, beynəlxalq müsabiqələrdə və digər platformalarda qadınlarımız ölkəmizi layiqincə təmsil edirlər. Bu, bizim üçün qururvericidir.

Bundan əlavə, millət vəkili, diplomat, hərbçi, hüquqşünas, müəllim kimi fəaliyyət göstərən, eləcə də biznes sahəsində və digər peşələrdə layiqincə çalışan qadınlarımız da az deyil. Bir sözlə, Azərbaycanda gender bərabərliyi hər zaman diqqət mərkəzində olub. Hətta tarixə nəzər saldıqda görürük ki, gender ənənəsi hələ ötən əsrin əvvəllərində belə, ölkəmizdə mövcud olub. Hətta zamanında bu ənənə bütün dünyanın diqqətini də cəlb edib.

Azərbaycan qadınının ötən əsrin əvvəllərindən etibarən ictimai həyatın bir çox sahələrində kişilərlə bərabər olması həmin dövrdən ölkəmizdə gender bərabərliyinin mövcudluğundan xəbər verir. Halbuki, o dönəmdə inkişaf etmiş ölkələrdə belə, hələ gender bərabərliyindən söhbət gedə bilməzdi. İstər İslam aləmində, istər də Şərqdə ilk dəfə qadına seçmək və seçilmək hüququ verən məhz Azərbaycan Xalq Cümhuriyyəti olub.

Əlbəttə, hər bir normal cəmiyyətdə insanların özləri də kişilər və qadınlar arasında bərabərliyin təminatçısı olmağa maraq göstərməlidirlər. Daha dəqiq desək, ya kişinin, ya da qadının bu bərabərliyi pozmasına cəmiyyət özü imkan verməməlidir. Eyni zamanda o da dərk edilməlidir ki, “gender bərabərliyi” dedikdə nə kişinin qadının yerini tutması, nə də qadının kişinin yerinə keçməsi başa düşülə bilməz. Bu baxımdan, insanlar kişi və qadınlar arasındakı bərabərlikdən qorxmamalıdırlar. Təsadüfi deyil ki, hazırda dünyanın bir çox ölkəsində gender, ailə və demoqrafiya problemləri həll edilməyə çalışılır.

1995-ci ildə qadınların Ümumdünya Konfransında qəbul edilmiş “Pekin Fəaliyyət Platformasında” qarşıya qoyulmuş strateji məqsədlərdən biri qadınlara qarşı zorakılığın aradan qaldırılması və bunun qarşısının alınmasıdır. Bu sənəd əsasında ölkəmizdə “Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı” adlı qərar qəbul edilib. Hətta Gender siyasətinin daha dolğun həyata keçirilməsindən ötrü Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılıb (2006-cı ildən Ailə, Qadın və Uşaq Prob-lemləri üzrə Dövlət Komitəsi adlanır).

Ümumilikdə, qadın-kişi hüquqlarını qadının üstün, kişinin aşağı olması və ya əksi kimi göstərmək olmaz. Qadın hüquqlarını qorumaq yolunda kişi hüquqlarını da tapdalamamış oluruq.



Hər dövrdə ailədaxili problemlər mövcud olub. Qısqanclıq, maddi çətinliklər, xasiyyət uyğunsuzluğu, xəyanət, şiddət bu kimi hallar evli şəxslər arasında boşanmalara səbəb olub. Zorakılıq göstərən kişiləri də qadınlar “yetişdirir”. Yəni etiraf etməliyik ki, bu cür düşüncələri uşaqlarımızın zehnində özümüz yaradırıq, kimisi ətrafında, kimisi ailədə görür.

O halda, biz cəmiyyətimizdəki bu kimi xoşagəlməz halların aradan qaldırılması üçün daha hansı işləri görməliyik? Bu və digər suallara sosioloq Mail Yaqubla söhbətimizdə cavab tapmağa çalışdıq.

> Tarixə nəzər saldıqda görürük ki, gender ənənəsi hələ ötən əsrin əvvəllərindən ölkəmizdə mövcud olub. Hətta zamanında bu ənənə bütün dünyanın diqqətini də cəlb edib...

Mail Yaqub ilk öncə onu bildirdi ki, bəzi hallarda “gender bərabərliyi”, “qadın hüquqları” məsələsi cəmiyyətimizdə yanlış qəbul edilir: “Gender bərabərliyi, qadın hüquqları, qadın hüquqlarının qorunması məsələsi o anlama gəlir ki, Azərbaycanda da, Avrovadakı kimi, ailəli qadın istədiyi yerə gedə, həyat yoldaşından icazə almadan istədiyi adamla ünsiyyət qura, istədiyi adamla istədiyi münasibəti qura bilər. Əgər bu anlama gəlirsə, şübhəsiz ki, bu, Azərbaycan kültürünə, Azərbaycan insanına, Azərbaycan xalqının etikasına mədəniyyətinə, əxlaqına uyğun gəlmir. Bu halda, ümumiyyətlə ailədən söhbət gedə bilməz. Bu gün Azərbaycanda boşanma halları çoxalıb, onun bir hissəsinin səbəbi də məhz budur. Tam deyil, amma kiçik də olsa, bir hissəsi də budur.



Qadın aşırı dərəcədə azad olmaq istəyir. Aşırı dərəcədə azad olmaq istəməsi, dediyim kimi, tam şəkildə kişi ilə bərabər olmaq deyil, bu, yolverilməzdir. Bu, feministlərin 20-ci əsrdə dünyaya ərmağan etdikləri biabırçılıqdır. Bunun nəticəsində Avropa və digər ölkələrdə ailələr dağılır. Çünki heç bir kişi buna instiktiv olaraq razı deyil ki, onun həyat yoldaşı istədiyi kimi, istədiyi adamla münasibət qursun.

Bəs o zaman ailə nə deməkdir? Ailəni qoruyan əsas vasitələrdən biri kişinin həyat yoldaşını qısqanmasıdır. Və bu təbii haldır, dəyərli bir hissdir. Bəli, aşırı dərəcədə qısqanmaq səhvdir, amma, ümumiyyətlə kişinin həyat yoldaşını heç qısqanmaması o deməkdir ki, ümumiyyətlə, burada ailədən söhbət gedə bilməz. Ona görə də mənim baxışım burada birmənalıdır.

Amma bu, həm də o demək deyil ki, kişi ailədə hegemonluq, diktatorluq etsin, əzazil olsun, həyat yoldaşını incitsin, ona yersiz vəzifələr yükləsin... Xeyr, bu, o anlama gəlmir, belə olmaz. Kişi həyat yoldaşına xidmət etməlidir, onun qayğısını çəkməlidir. Feministlər heç məsələnin bu tərəfini də qəbul etmirlər. Yəni onlar bunu da qəbul etmirlər ki, kişi ilə qadın bərabərhüquqlu olduğu üçün kişi nəyə görə xanımının əziyyətini çəkməlidir, ona xidmət etməlidir?!

> “Ailəni qoruyan əsas vasitələrdən biri kişinin həyat yoldaşını qısqanmasıdır”

Biz onu deyəndə bu tərəfini də hər zaman qeyd edirik ki, kişi xanımının qulluğunda olmalı, ona xidmət etməlidir. Məsələn, xərclərini ödəməli, ən əsası onun qayğısını çəkməlidir”.

**Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

Ölkəmizi təkrar olaraq 1920-ci ildə işğal etmiş, bağımsız cümhuriyyətimizi susdurmuş Rusiya bolşeviklər imperiyası özünün hər cür təbliğatıyla bizim türk olmadığımızı, əslində, Türk aləminin bizə "düşmən olduğu"nu sübutlamağa çalışırdı. Özəllikcə, Anadolu türklərilə bizlərin heç bir ilişgimizin "olmadığı"nı sübutlamağa cəhd edirdi. Bunun üçün çoxsaylı variantlardan yararlanırdı.



# Əzəmətli ölkə, möhtəşəm diyar - doğma, əziz türkiyə

İlk öncə çalışırdı, Azərbaycanlıların, eləcə də qazaxların, özbəklərin, tatarların, qırğızların, türkmənlərin, başqırdların, kumıkların... işlətdiyi sözlərlə anadoluların... işlətdiyi sözlər, bütövlükdə, dillərimiz bir-birindən fərqli olsun. Bu isə, mümkün deyildi, ancaq dilimizin fonetik quruluşunda, qrammatik qanunlarında dəyişiklik törətməyə cəhd edirdi, bu da onların istədiyi səviyyədə alınmırdı. Geyimlərimizi fərqləndirməyə çalışırdı, teatrlarda, kinolarda geyimlərimizi ələ salırdı, bu da onun istədiyi səviyyədə alınmırdı. Yeməklərimizi fərqləndirmək üçün çalışırdı-vuruşurdu, istəyinə tam nail ola bilmirdi... Anadolu türklərini biz tərəfə, bizləri onlar tərəfə buraxmırdı, yenə bir şey alınmırdı, az da olsa, gedən gedirdi, gələn gəlirdi.

İmperiya milli türk adımızı dəyişib "azərbaycanlı" elədi, "türk" sözü işlədilməsini qadağanladı. Özümüz türk olduğumuzu bilə-bilə, "azərbaycanlı"nı işlətməli olduq. Amma ermənilərin dili "azərbaycanlı" sözünə yatmadı, onlar ata-babalarından bəri bildikləri "türk"dən yana çıxa bilmədilər, yenə bizlərə "türk" deməli oldular.

İmperiya əlifbamızı latın qrafikasından kirilə keçirdi, bu yolla da bizi kökümüzdən ayıra bilmədi. Türkü, o sıradan da bizi başdan-başa avam, geridə qalmış, savadsız, cahil adlandırdı, bizləri belə "olduğumuz"a da inandıra bilmədi. Çoxbilmiş bolşevik imperiyası dilçiləri soyad sonluğumuzu Anadolulanrıkından fərqləndirmək üçün türkcə olan "-lı", "-li", "-oğlu" soyad sonluqlarımızı ruslara aid olan "-ov", "yev", "-ski" soyad sonluqlarıyla əvəzlədi, türkcə olan "-lı", "-li", "-oğlu" soyad sonluqlarını da bizlərə unutdura bilmədi. Doğrudur, bağımsız Vətənimizdə indinin özündə də "-ov", "yev", "-ski" soyad sonluqlarından əl götürə bilməyənlərimiz də yox deyil (bunlar sırasında millətçi, dilçi alimlərimizin də varlığı təəccüb doğurur). Ancaq gec-tez bunlar da soyad sonluqları işində öz köklərinə qayıtmalı olacaqlar.

Bolşevik imperiyası dilçiləri başqa bir yola baş vurdular. Onlar Anadolu türklərinin dilindən fərqləndirmək üçün dilimizə, onun qanunlarına yad olan qadın cinsi yaratdılar. Buna uyğun olaraq qadın müəllim - "müəllimə", qadın şair " - şairə", qadın xidmətçi - "xadimə", qadın sahib - "sahibə", qadın müdir - "müdirə" və bu kimi adlandırdılar. Bunlar isə, ismin yönlük halındadır və "kimə?" (məsələn, müəllimə, şairə, xadimə - kimə?) sorusuna cavab verir. Belə olduqda, qadın həkim, qadın mühəndis, qadın yazıçı, qadın başçı, qadın hərbçi, qadın sürücü və bu kimi peşə yiyəsi olan qadınlarımız necə adlandırıla bilərlər? Qadın soyadlarında da onlar dilimizə "yenilik" gətirdilər: özlərinin düzəltdikləri kişi soyadlarının sonuna "a" səsi artırmaqla qadın soyadları düzəltdilər. Məsələn, Həsənov - Həsənova, Hüseynov - Hüseynova, Məmmədov - Məmmədova... Burada da məsələn, Həsənova (qadın) kimə? sorusuna cavab verir və ismin yönlük halını göstərir.

Bildiyimiz kimi, dilimizin qanunlarına görə, özəl adlar yalnız ismin adlıq halında ola bilər. Deməli, dilimizə qadın cinsinin artırılması onun qramatik qanunlarının pozulmasına, qadın soyadlarının ismin təsirlik halına aid edilməsinə nədən olur.

Odur, Azərbaycandakı bütün soydaşlarım kimi mənim də Türkiyəni, Təbrizi görmək, Türkiyənin təbiətini seyr etmək, insanları ilə təmasda olmaq, yaşam tərzi ilə tanışlıq lap gənclik illərimdən bəri arzularımdan idi. Təbrizə 1997-ci ildə getmişdim.

Türkiyəni görmək istəyimə də çatdım. Avqust ayında xanımım, qızım, kürəkənim və torunlarımla Türkiyəyə gedəsi olduq. Mən Türkiyəyə tədbirə qatılmaq məqsədilə gedirdim, onlarsa, məni tək buraxmamaq üçün mənimlə bərabər getdilər.

Avqust ayının 12-də Böyük Türkiyənin Trabzon şəhərinə yetişdik. Tədbirə qatılmadım. "Trabzon Star Pansion"unda yerləşdik. Pansion təmiz, səliqəli, qayda-qanunlu, başkanı Ahmet İnsan Yıldırım da daxil, bütün işçiləri kültürlü, mehriban idilər. Azərbaycandan, Bakıdan olduğumuzu biləndə bizə olan münasibətləri daha da istiləşdi. Bizimlə doğmalaşdılar. Bu, qardaşlıq ilgisi idi. Bu münasibətlərinə görə onlara təşəkkürlər düşür.

Burada yer alandan sonra "Meydan" deyilən yerdə olduq. Meydanın tən ortasında ucalan müdrik siyasətçi, görkəmli dövlət başçısı, azman mütəfəkkir, əfsanəvi sərkərdə, bütün türklərin Atası Qazi Mustafa Kamal Atatürkün əzəmətli heykəlini ziyarət etdik. Heykəllə foto yapdıq. Qazi Mustafa Kamal Atatürkün möhtəşəm heykəlini, büstünü, qürurverici şəkilini, sevgi dolu təsvirini hər yerdə görmək, hər yerdə insanların ona olan sevgisini, məhəbbətini duymaq olardı. Böyük Mustafa Kamal Atatürk bütün dünyada rəğbət bəslənən, sevilən, dəyərləndirilən qüdrətli bir sərkərdə, böyük bir dövlət başçısı olub. Böyük Atatürk hələ zalım bolşeviklər imperiyası dönəmində Azərbaycanda yaxşı tanınırdı, sevilirdi, haqqında adamlar, ilk öncə milli qeyrət sahibləri hər zaman imperiya cəlladlarından ehtiyatlana-ehtiyatlana söz açırdılar. Azərbaycan xalqı onunla həmişə iftixar duyurdu.

## Ulu Məkan

Böyük öndər Atatürkün yaşadığı "Atatürk Köşkü" Trabzon şəhərinin başı üstdə, dağın üstündə, meşəlik, çəmənlik, gül-çiçək əhatəsində yerləşir. Qazi Mustafa Kamal Atatürkün dincəldiyi, düşündüyü, çalışdığı, görüşlər keçirdiyi, mütaliə etdiyi, göstərişlər verdiyi, işlədiyi, yatdığı otaqlara baxdıq, yemək otağını, mətbəxini, oxu zalını, qəbul otağını, kitabxanasını gəzdik. Mustafa Kamal Atatürk boyda azman bir insanın, azman dövlət xadiminin, insanlığı sevən bir şəxsin mövcudluğu haqqında dolğun bilgilər verir, onun nəhəngliyini zehinlərdə canlandırır. Qazi Mustafa Kamal Atatürkün köşkünü ziyarət etməyə gələn Atatürksevərlərin ardı arası kəsilmirdi. Bunların sırasında Türkiyəyə gəlmiş, aralarında çoxsaylı ərəblər də olan turistlər çox idi. Gələnlər sadəliklə nəhəngliyin çulğaşdığını görüb təmsil olunduqları dövlətlərin başçılarıyla, sərvət, şöhrət, qənimət düşgünləriylə qarşılaşdıraraq heyrətlənirdilər. Məncə, böyüklük deyəndə, Mustafa Kamal Atatürkün mütəfəkkir, sərkərdə böyüklüyünü anmaq az önəm daşımaz. Bu zaman özəllikcə böyüklüyün, dövlət başçısında böyüklüyün nə demək olduğu da insan zehnində özünə yer edər...

## Trabzonun gəzimli, görümlü yerləri

Bu yerlərdə ərəblər çox idi. Onlar Trabzon şəhərinə, onun gəzməli, görməli yerlərinə doluşmuşdular. Ərəblər haraya, hansı dükana, hansı marketə girirdilərsə, oradan aşırı sayda geyim malları, ev avadanlıqları, məişət əşyaları alırdılar. Buradakı ərəblərlə söhbətlərdən onların Türkiyədə məskunlaşmaq məqsədi daşımadıqları aydın olurdu.

Məqsədləri Türkiyəyə turist axınının qarşısını almaq, onunla alqı-satqı ilişgilərini kəsmək, Türkiyə dölətini zəifləmək, onu parçalamaq olanlar ardıcıl terror aktı törədəndə Səudiyə Ərəbistanının Şahzadəsi Türkiyəni rahatsız olmamağa çağırdı, dedi, rahatsız olmayın, Türkiyənin kənd təsərrüfatı məhsullarını biz alacağıq, Türkiyəyə turist axını bizdən olacaq. Şahzadə öz vədini doğrultdu. İndi Türkiyənin kənd təsərrüfatı məhsullarını ərəblər alırlar, oraya turist axını da ərəb ölkələrindən baş verir. Ara-sıra buna başqa rəng qatanlar da olur, ancaq haqsız yerə, o deyilənlər doğrunu əks etdirmir.

Türkiyənin Cümhur Başkanı cənab Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Türkiyə Cümhuriyyəti türklərin Vətənidir və türk xalqı xain gözlə baxanın gözlərini zaman-zaman oymuşdur və yenə də oyacaqdır. İş odur, bütün dünyanın qənaəti də tarixən belə olmuşdur, indi də belədir, inanırıq gələcəkdə də belə olacaqdır. Tarix türklərlə yalnız düz danışanların hayatda qazanmış olduğunun həmişə şahidi olmuşdur.



Avqustun 14-də gəzinti maşını ilə Trabzondan maşınla 3-4 saatlıq uzaqlıqda olan Uzungöl Dincərlik Mərkəzinə yollandıq. Uzungölə aparan yol təqribən Trabzondan 5-10 kilometr ucalıqda olan ormandan başlayırdı. Öncə təpəsi çox ucalıqda olan başqa bir dağ gəlirdi, sonra başlanğıcını dağın təpəsindən götürən suyu şırıltıyla axan dərə... sonra bu ucalıqda başqa bir dağ, sonra bu ucalıqda şırıltılı çay axan başqa bir dərə... Silsilə dağlar, onların müşayətçisi olan çayı şırıltıyla axan silsilə dərələr... Bir-birinə arxa duran dağlar da, bu dağların müşiyətçisi olan dərələr də sıra ilə düzülmüşdü, beş deyildi, on deyildi...

Mənzil başına aparan yoldan dağın yüksəkliyinə sarı baxanda adamın gözü qamaşırdı. Dağlar dik deyildi, elə bil, torpağı bərk-bərk qucaqlamışdı, sanki, torpağın ondan ayrılacağından, harayasa gedəcəyindən ehtiyatlanır, onu buraxmayacağını bildirirdi. Dağlar yamyaşıl ormanlarla örtülü idi. Bütün dağların başını duman bürümüşdü. Elə bil, dağlar ağ örpəklə çalmalanmışdı. Dağların sayı qədər də dərələr vardı. Dağlar yamyaşıl ormanlarla, yaşıllıqlarla örtülmüşdü. Dərələrdən şarhaşarla çaylar axırdı. Elə bil, bu dərələr, bu çaylar dağların keşiyini çəkirdi, deyirdi, xain amalla dağa doğru gələn olsa, onu öz selində boğacaqdır. Bu, Türkiyə torpağının möcüzəli mənzərələrindəndir.

Zamanında Uzungöl Dincərlik Mərkəzinə çatdıq. Burada təbiətin göz oxşayan, qəlb riqqətə gətirən gözəllikləri Uzungölün gözəlliyini daha da artırırdı. Uzungölün yörəsində alış-veriş mərkəzləri, çay evləri, kafelər çalışma yapırdı. Hər yanında hər şey yerli-yerində, nizam-intizam öz yolunda...

Arabir dağların başını saran duman bir az qatılaşıb buluda çevrilərək dağ boyu aşağı enməyə başlayır, birdən göy guruldayır, göydən yağış tökür, nə tökür... Hamı qaçıb ticarət köşklərində, dincərliklərdə, kafelərdə, restoranlarda daldalanır. Yağış yağması 15-20 dəqiqə çəkir. Yağış səhliyir, heç nə olmamış kimi gün çıxır, yenə dincələn dincəlməyində, alış-veriş edənlər öz işlərində, seyrçilər də öz seyrçiliklərində...

Belə bir müraciət qəlbimizdən keçdi: sevimli dağlar, dərələr, çaylar, ormanlar! Siz bir-birinizə arxasınız, bir-birinizi qoruyursunuz, bir-birinizin mötəbər keşikçəkəni, əzizi, Böyük, Ulu Türkiyənin ürəklərdə boylanan sevimlisisiniz! Sizlər heç zaman unutmasın, bütün türklərin sevinc, qürur, güvənc yeri, dayağı, böyük Vətəni Türkiyə kimi əzəmətli, möhtəşəm bir Cümhuriyyətin ərazisindəsiniz. Möhtəşəm Türkiyə Cümhuriyyəti, onun gəlişmiş, yenilməz, mərd, qəhrəman övladları yüzillər boyu sizləri göz bəbəyitək qoruyub, indi də sevə-sevə, əzizləyə-əzizləyə, sığallaya-sığallaya qoruyur, sizlərlə qürur duyur və insanlıq tarixi uzandıqca sevə-sevə, əzizləyə-əzizləyə qoruyacaq, yaşadacaqdır, sizlərə xain baxan gözləri oyacaq, yad niyyətləri ürəklərdə qoyacaqdır. Eşq olsun sizlərə, sizin vüqarlı duruşunuza, sədaqətinizə, əbədi etibarınıza!

*(Ardı var)*

**Bəhmən SULTANLI**

# Yaşa Cumhuriyet



**Tanınmış bəstəkar, hazırda həbsdə olan ictimai xadim Tural Bayraməliyev Türkiyə Cümhuriyyətinin 101-ci ildönümünə şeir həsr edib. Türkiyə-Azərbaycanın dostluq-qardaşlıq, birlik-bərabərliyinə ərmağan edilən şeiri oxucularımıza təqdim edirik:**

*Taşınsın sancağın istikbalinle*
*Yıldızın yukselsin nun hilalinle*
*Mustakil bekanla, istikbalinle*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Toprak Vatan olur sehit yatanda*
*Bağımsız ulkene fatih katanda*
*Cennet memlekette, kutlu vatanda*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Gucun milletdir kol ayağında*
*Allah yardım eder hak dayağında*
*Kahraman Ulusun Turk Bayrağında*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Umuttur seninle bu gün yarında*
*Yarğıdır hurriyet kararlarında*
*Bu şanli devletin istikrarında*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Milli egemendik saatinde*
*Hukuk, demokrasi adaletinde*
*Hakkın hakikatin sehadetinde*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Engin siyasette qalib yarışta*
*İşğale yaramaz zerre karışta*
*Savaşsa savaşta, sulhte barışta*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Şiirde, romanda, tarih destanda*
*Aşkın canlardadır sevgin her yanda*
*Her zaman kudrette yurdda cihanda*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Kuvveti mabuddan haktan alanda*
*Vatan guneşimiz özgür kalanda*
*Turan denizinde Kızıl elmada*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Düşman ayak, devlet başa Turkiyem*
*Aşılmayan surlar aşa Turkiyem*
*Milletinle mesut yaşa Turkiyem*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

*Dahada buyuruz acı sızında*
*Sosyal kalkinması pilot hızında*
*Milli ruhumuzla ay-yıldızında*
*Yaşa Cumhuriyet, yaşa Turkiye!*

# Oqtay Rzanı xatırlarkən...

## (Oqtay Rza - 90)



Allahverdi Eminov

Allahverdi Eminov



**Oqtay Rzanın itkisi çox-çox biz nəsli göynədəcək. Qəzet səhifələrini vərəq-ləyəndə onun şeirlərini görməyəndə ürəyimiz sancacaq, yəqin növbəti sayında veriləcək şeirləri. Və inamla günləri, ayları, illəri yola salacağıq. Və bir gün Oqtay Rza sevərlərin ruhu onunla görüşəcək....**

Bir gün "Azərbaycan" nəşriyyatının dördüncü mərtəbəsindəki aşxanada (indi yoxdur) Oqtay Rza dostu, mərhum yazıçı Nahid Hacızadə ilə nahar edirdi. Məni görcək süfrəyə dəvət elədilər. Əhvalları düzəlirdi. Maraqlı söhbətlərinə qoşuldum. Nahid müəllimin güclü hafizəsi vardı... O: - Allahverdi müəllim, - dedi. - İrəlidə Oqtay Rzanın 75 illiyi gəlir, yəni 2009-cu il! - Badələr toqquşdu. - İndi elə dövrə gəldik kimsə kim haqqında təmənnasız kitab yazmırlar. Ortada ya vəzifə kültu, ya da nəsə bir nəsnə olmalıdır. Səni biz istisna ədəbiyyatşünas, pedaqoq kimi tanıyı-rıq. Bəlkə dostumuz haqqında monoqrafiya qələmə alasan. Bu, mənim xahişimdir.

Söz verdim...Bu vəd təsadüfi deyildi mənimçün. Çünki, bələd olmadığım, yaradıcılığını izləmədiyim, şəxsiyyətinə hörmətim yoxsa nə işim var meydanda!

... Mən Salyan rayonunun Kərimbəyli kənd orta məktəbinə təyinat almışdım (1964), cani - dildən ədəbiyyatı və Azərbaycan dilini tədris edirdim. Müntəzəm yerli "qələbə" qəzetində iri həcmli publisist yazılarım işıq üzü görürdü. Eyni zamanda ədəbi şəxsiyyətlər və onların kitabları haqqında resenziyalar yazırdım. Xatırlayıram: M.Araz, Söhrab Tahir, Əlisa Nicat, Gündüz Abbasov, Əfrayıl Mə-hərrəmov, Mövlud və başqalarını... Bir gün Bakıya yolum düşəndə aldığım kitablar içərisində Oqtay Rzanın "Torpağı dinləyirəm" (1970) şeirlər məcmuəsi də vardır. Oxudum, ilk görüşü idi oxucuları ilə. Kövrək, həzin poetik nümunələr tutdu məni. Tələsmədim yazmağa, düzü, Salyana yolu düşməsini gözləyirdim. Bu həvəs və maraq qismətimə düşmədi. Vaxt gəlib 1969-cu ilə çıxdı, aspiranturaya yenicə qəbul olunmuşdum. Nəhayət, yazıb "Qələbə"də çap etdirdim.

Keçmiş adı ilə APİ-yə bağlı olmuşam, bu gün də. Oqtay Rza bu institutda dosent vəzifəsində dərs deyirdi. Tanış olduq. Güclü yaddaşlı Oqtay Rza adımı və soyadımı eşitcək sevindi: - Axtarırdım səni, öz təşəkkürümü çatdıram. Mənə qə-zetdən bir nüsxə göndərmişlər. Təşəkkürlər Allahverdi Eminə!

İstədim düzəliş verəm ki, "ov"u hara atdın? Susdum... Beləcə biz tez-tez görüşürdük, dərs verdiyi fakultəyə dəvət edirdi. Və bir gün məzunu olduğu Azərbaycan Neft və Kimya İnstitutuna apardı məni, gənclik və tələbə dostu, böyük alim, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Ramiz Qurbanovla tanış oldum və az sonra salyanlı alim haqqında "Dəniz niyə tələsmir" adlı oçerkimi "Qələbə" qəzetində çap etdirdim. Professor Ramiz Qurbanov Oqtay Rzanın son günlərinə qədər münasibətlərini , dostluğunu qorudu, ağır itkini yaşadı...

Mən Oqtay Rzadan yazacağıma şübhə etmirdim, çün təxminən 40 il zaman kəsiyi çox mətləbləri mənə diqtə etmişdi, şairin şəxsiyyətindən irəli gələn nüanslar idi: onun düzlüyü və təmənnasızlığı, ata və ana sevgisi, cəmiyyətin və fərdlərin yaşayış tərzləri...

**Həmişə dəyişməz, saf qalıb qızıl,**
**İnsan çoxaldıqca azalıb qızıl.**
**Heç bir qarışı olmadığından**
**Paklıq sırasına yazılıb qızıl**

Rübaidəki dərin əxlaqilik əyanilikdir şair şəxsiyyəti üçün, bu, daxili tələ-batdır, onu əksinə çevirmək çətindir, bəlkə də mümkünsüzdür. O, heç bir halda ha-zır hərəkət etalonlarına boyun əyməmişdir, necə deyərlər, "etalon hisslərdə" insan vücudunu sezmişdir. Onu tanıyanlar bilir ki, Oqtay Rza süni əxlaqi münaqişəyə getməmişdir, real intriqa situasiyalarda yalançı, süni prosesləri ayırmışdır.

Oqtay Rzanı tanıyanlarda bir təsəvvür dəyişməz idi: o, xoşbəxtdir! O, hə-yatdan ləzzət alır! O, azad, həssasdır! Zahirən də, daxilən də beləydi, ona görə ki, dünya sərvətində heç vaxt gözü olmamışdı. Pedaqoji Universitetdə minlərlə müəl-lim - pedaqoq çalışır, bu gün də. Onlardan yalnız beş - altısı pakdır, əli harama dəyməmişdir, biri də Oqtay Rza idi. Bəli, təsdiq etməyə dəyər. Filosoflar da təsdiqləmişlər ki, xoşbəxtlik uzun müddət davam edən, yaxud bir-birini əvəzləyən həzzdir, zövq almaqdır, sevdiyi xoş duyğulardır. Şair Oqtay Rzanın xoşbəxtliyinin psixoloji təkanı budur:

***Bir gül üçün dağ laləsi dərəm gərək,***
***Bir qəribə yolu nişan verəm gərək.***
***Bir yetimin toy gününü görəm gərək.***
***Yaxşılığı əzəl borcum bilə-bilə yaşayıram.***
***Demək, hələ yaşayıram...***

Bəli, ustad, sən daima yaşayacaqsan ruhunla. Sən elə iz buraxmısan - bunu fəhminlə bildirmisən.

**El içində izim qalsa, odum qalsa -**
**Saçıb şölə yaşayıram,**
**Demək, hələ yaşayıram!**

Bəli, ustadan xoşbəxtliyi, aldığı həzz insana - ətraf mühitinə ehtiyacıdır.

Bəli, ustad, cəmiyyətin də borcu səni, şairi, müəllimi, dostu yaşatmaq idi və yaşatdı da!

Oqtay Rza atasını repressiyada itirmişdi, bütün arzusunu, sevgisini, ümidini anasına bağlamışdı. Yaşının 60-da, yetmişində də... anasını xatırlayanda göz yaşını saxlamağı bacarmırdı, dəfələrlə bunun şahidi olmuşam.

*Obamı dünyama dəyişmərəm mən,*
*Könlümü dəryaya dəyişmərəm mən.*
*Analı pis günün bircə anını*
*Anasız xoş aya dəyişmərəm mən*

Bir gün Oqtay Rzaya institutdan çıxanda rast gəldim: - Mirzə, sabah vaxtın varmı? - Soruşdu. - Necə məgər? - Xəbər aldım. - Olmasa da yaradarıq. - Uzağa getməyəcəyik, professor Ramiz Qurbanın kafedrasına baş çəkərik. Vədələşərik. Səninlə onu lap yaxından tanış edərəm. - Nikbincəsinə dilləndi. Səhəri səmimi, təvazökar, yüksək elmi erudisiyalı alimlə xeyli vaxt keçirdik, elmi məsələlərdən danışdıq. Oqtay Rza bəzi suallara aydınlıq gətirməsini xahiş elədi. Sən demə, Oqtay Rza bu şeiri təxəyyülündə "layihələşdirmiş", bir məsələ onun üçün qaranlıq imiş. "Cüt qüvvə"nin müəllifi Ponsele olduğuna əminlik hasil etmək imiş. Professor Ramiz Qurbanla "Nəzəri mexanika" kafedrasına gəlişimizin əsas səbəbi bu imiş.

Az sonra Oqtay Rza özünə xas jestlə:

- Bu şeiri sənə həsr etmişəm, - dedi əzbərdən. Bəzi misraları möhtərəm oxucülara xatırladacam.

***Cüt qüvvə fırladır anamız Yeri,***
***Cüt qüvvə möhtəşəm, qoşa qanaddır.***
***Odur fırlandıran səyyarələri,***
***Bir an fırlanmamaq aləmə yaddır.***

***Fırlanır dərə - dağ, fırlanır dəniz,***
***Adalar, qitələr fırlanır müdam.***
***Qatil! Cüt qüvvəsiz yox olarıq biz,***
***Cüt qüvvə yaşamaq, məhəbbət, inam!***

***Cüt qüvvə qanunu! Səslən əzm ilə!***
***Sən nə əfsanəsən, nə də rəvayət!***
***Səni kəşf eləyən alim Pansele***
***Ömür - gün dostu da tapıb nəhayət...***

**(Ardı var)**

# Qərbi Azərbaycanlıların II Dünya müharibəsində iştirakı



## (Qapan nahiyəsinin kəndləri üzrə)

### I. Yuxarı Pürülü kəndi

**Qərbi Zəngəzurun təbii-coğrafi şəraitinə görə "Gığı dərəsi" hövzəsini tutan ərazi Oxçuçay yatağı və qolları boyunca yerləşən Qapan nahiyəsinin kəndləri (Acıbac, Baharlı, Mahmudlu, Gığı...) əhatə etdiyindən həm də tarixən, kökənli Türk-Müsəlman qövmünün doğma yurd-ocaqları sıx əhali məskunlaşma məkanı kimi tanınmışdır.**

**Hörmətli el ağsaqqalları, dini-irfani iman yiyələri, görkəmli təsərrüfat rəhbərləri, maarif-mədəniyyət, ictimai və elm xadimləri... yetişdirən "Gığı dərəsi"nin çoxminli Türk-Müsəlman əhalisi, eynən Qərbi Azərbaycanın digər bölgələrindəki kimi, II Dünya müharibəsi illərində silaha sarılaraq həm ön cəbhənin döyüş meydanlarında qəhrəmanlıqlar göstərmiş, 1945-ci ilin 9 may-Qələbə günü şərəfinə canlarından keçmiş, eləcə də, arxa cəbhədə-Zəngəzur bölgəsinin təsərrüfat quruculuğunda ağır zəhmət bahasına kənd təsərrüfatı məhsullarının istehsalını artırmış, ağır iqtisadi çətinliklərə dözərək böyük qələbəyə layiqli töhvələrini vermişlər.**

Qapan nahiyəsinin "Gığı dərəsi"nin bu cür yaşayış məntəqələrindən biri də Yuxarı Pürülü (el arasında bəzən "Daş Pürülü" deyilir) kəndi olmuşdur.

1939-1940-cı illərdə bu kənddə 100-110 ev olub, 700 nəfərə qədər əhali yaşayıb, onlardan II Dünya müharibəsində 60 nəfər soydaşımız iştirak etmiş, 45 nəfəri geri qayıtmamışdır.

**Müharibədən geri qayıtmayan Yuxarı Pürülü kənd sakinləri:**

1. Məmməd Allahqulu oğlu Mövsümov (1921), subay;
2. Ələmqulu Allahqulu oğlu Mövsümov (1920), subay;
3. Qurban Turab oğlu Qurbanov (1921-1945), 2 ay imiş evləndiyi, snayperçi olub, onunla bir səngərdə olan "erməni" sonralar zərb-məsələ çevrilən və döyüş meydanındakı ona aid bir olayı/deyimi xatırladıb-Qurban çartlamadı, daş çartladı...
4. Möhbalı Kərim oğlu Mehrəliyev (1912), 1 qızı, 2 oğlu qalıb;
5. Səlim Kərim oğlu (1911), subay, itkin düşüb;
6. Abbasəli Oruc oğlu (1920),subay, itkin düşüb;
7. Əliabbas Xudayar oğlu (1914), subay;
8. Xəmi Xudayar oğlu (1913), 1 qızı qalıb;
9. Yunus İman oğlu Nəzərov (1919), zabit, subay olub;
10. Əkbər Mehralı oğlu Mehralıyev (1919), subay olub;
11. Müsücə Allahverdi oğlu Məmmədov (1922),, 1 oğlu qalıb;
12. Şərbət Həsənalı oğlu (1910), 1 oğlu, 3 qızı qalıb;
13. Şahsuvar Fərhad oğlu Dünyamalıyev (1919);
14. Qulamalı Ümid oğlu (1908), 2 qızı, 2 oğlu qalıb;
15. Alı Umud oğlu (1912), 1 qızı, 1 oölu qalıb;
16. Calal Tarverdiyev (1914), 1 oğlu qalıb;
17. Nəcəf Hüseynov (1924), subay;

**Müharibədən qayıdanlar:**

1. İsmayıl Əziz oğlu Gəncalıyev (1921-1955), zabit (albay) olub, yarası ağır olduğu üçün vəfat edib;
2. Şamxal Xəlil oğlu Həsənquliyev (1918-2020), müharibədən sonra kənd məktəbində müəllim işləyib;
3. Topuş Kərim oğlu Mehrəliyev (1921-2019), riyaziyyat müəllimi olub;
4. Piriş Hümbətov (1892-1984);
5. Hüseyn Abış oğlu Şəkərəliyev (1922-2015), müəllim işləyib;

### II. Həçəti kəndi

Qərbi Zəngəzur ərazisində ən hündür zirvəsi olan Qapıcıq (3916 m) dağının şərq yamacları axarında, Qızılqayanın ətəyində (4-5 km məsafədə), Arpalıq və Kalavalıq dərələri arasında sıx meşə qoynunda yerləşən Həçəti kəndi "Gığı dərəsi" hövzəsi yaşayış məntəqələrinə aiddir.

1941-ci ildə bu kənddə 40-a qədər ev olub, kökənli 150 nəfərə kimi Türk-Müsəlman əhalisi yaşamışdır.

II Dünya müharibəsi cəbhələrindən geri qayıtmayan Həçəti kənd sakinləri:

1. Bəhram Piriş oğlu İbrahimov, Hasanlı nəsli, Qara dəniz cəbhəsində döyüşüb,1 oğlu, 1 qızı qalıb;
2. İsa Şahkərəm oğlu Alıyev, Nurqələmli nəsli, 1 oğlu, 4 qızı qalıb;

**Müharibədən qayıdanlar:**

1. Soltan Əmirsaday oğlu Muradov, (1912-1948), müharibədən qayıtdıqdan sonra hayların təqibi ilə öldürülüb, atası qonşu Qatar kəndindən (60-70 evi olan bu kəndi hay kilsəsi 1948-ci ildə köçürüb, camaatı Həçəti kəndinə, Qapan və başqa şəhərlərə köçürülüb);
2.. Əbil Piriş oğlu İbrahimov, Hasanlı nəsli, müharibədən qayıdan kimi sürgün edilib, 1 oğlu, 1 qızı qalıb;




3. Bədəl Məmməd oğlu Bədəlov (1921-2005), Hasanlı nəsli, Xalxin-Qol döyüşlərində iştirak edib, Sumqayıt şəhərində yaşayıb;
4. Orduxan Məmməd oğlu Bədəlov (1925-2009), Hasanlı nəsli, Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib, Zabrat kəndində dəfn edilib;
5. İbrahim Musa oğlu İbrahimov (1925-1993), Saray qəsəbəsində dəfn edilib;
6. Sərxan Əmrah oğlu Pirəliyev (1908-1986), 5 oğlu, 1 qızı olub, Saray qəsəbəsində dəfn edilib;
7. Cahangir İldırım oğlu (1923-1985), Hasanlı nəsli, döyüş yolu Berlin şəhərində sonuclanıb, Həçəti kəndində dəfn edilib;
8. Oruc Şahvəli oğlu Alıyev (1913-1986), Nurqələmli nəsli, 8 oəlu, 5 qızı olub;
9. Murad Əmirsaday oğlu Muradov (1915-1987), 2 oğlu, 8 qızı olub;

***P.S.* *Əslən Həçəti kənd sakinlərindən İbrahim Behbud oğlu Məmmədov (1959-1990) 20 yanvar 1990-cı il gecəsi şəhid olub, Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilib.***

***Ələsgər Şirin oğlu Şirinov (1935) I Qarabağ müharibəsində Qubadlı-Zəngilan cəbhəsində döyüşüb, II qrup müharibə Qazisidir.***

***Xəyyam Bədəl oğlu Bədəlov (1967-1992) isə Göygöl rayonu, Todan, Buzluq kəndləri, Goranboy rayonu uğrunda döyüşlərdə Şəhid olub.***

***II Qarabağ müharibəsi tarixində Taleh Əlixan oğlu Bədəlov (1987) 19-20 sentyabr 2023-cü il döyüşlərinin Qazisidir.***

**Qismət YUNUSOĞLU,**
**Bakı Dövlət Universitetinin müəllimi**

***Qeyd:*** *Yazının hazırlanmasında Qapan nahiyəsinin Yuxarı Pürülü kənd sakinləri Gəncalı Əziz oğlu Gənciyevin (1928), İsmayıl Gəncalı oğlu Gənciyevin (1969) və Həçəti kənd sakinləri Bəxşeyiş İldırım oğlunun (1947) və Xürrəm Məmməd oğlu Bədəlovun (1960) məlumatlarından istifadə olunmuşdur).*